# Partlayışda yaralanan qız vəfat etdi

Stasionarda müalicə alanlardan ambulator müalicə üçün 9 nəfər evə göndərilib



**Səbail rayonu ərazisində yerləşən obyektdə baş vermiş partlayış zamanı xəsarət alanlardan bir nəfər 1999-cu il təvəllüdlü Fərqanə Eynullayeva dünyasını dəyişib.**

TƏBİB-dən "Şərq"ə verilən məlumata görə, o, 60-62 faiz və III dərəcəli yanıq xəsarəti ilə reanimasiyada olan kritik ağır xəstələrdən biri idi.

(səh.2)



## Vladimir Jirinovski ölüb

**Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski ölüb.**

Bu barədə Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodin bildirib.

O, Jirinosvkinin ağır və uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdiyini qeyd edib.

❒ № 59 (5581), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 aprel 2022-ci il (cümə axşamı)



# Bələdiyyələrin nağd pul xərcləməsinə icazə verilməyəcək

**Bələdiyyə xərcləri yalnız elektron qaydada həyata keçiriləcək.**

Bu barədə məsələ Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planında əksini tapıb.

Belə ki, fəaliyyət planında bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması nəzərdə tutulur.

Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Vahid Sosial İnnovasiyalar üzrə Dövlət Agentliynə portalın qanunvericilik bazasının hazırlanması tapşırılıb.



## Ərdoğan iddialıdır

Seçkilərdə 6 müxalifət partiyasını məğlub edəcəyini vəd verib

**Türkiyədə 2023-cü ilin iyun ayında keçiriləcək prezident və parlament seçkiləri çox əhəmiyyətlidir.**

**APA xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

Türkiyə lideri 6 müxalifət partiyasının yaratdığı ittifaqa da münasibət bildirib: "Küçədə bir-birini görüb salam verməyəcək altı nəfər bir masa ətrafında toplaşıb. Bunun bənzəri Macarıstanda da olmuşdu. Onların təlimatları haradan aldıqları məlumdur. Ortada razılaşdırdıqları bir proqram yoxdur, prezidentliyə namizədləri yoxdur. Proqram deyə ortaya çıxardıqları mətn xaricdə hazırlanıb onlara verilib".

(səh.2)

## Kreml: Ukrayna ilə danışıqlar prosesi pozulmayıb, davam edir



**Ukrayna ilə danışıqlar prosesi davam edir, qarşıda uzun yol var, lakin indi hər şey ağır gedir.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

"Qarşıda hələ kifayət qədər uzun bir yol var. İş prosesi davam edir, lakin bu proses ağır gedir. Təbii ki, biz Ukrayna tərəfdən daha çox dinamika görmək istərdik", - Kremlin sözçüsü Rusiya-Ukrayna danışıqlarının növbəti raundlarının perspektivləri ilə bağlı sualı cavablandırarkən deyib.

O, danışıqlar prosesinin pozulmadığını və davam etdiyini vurğulayıb.

# Brüsseldə liderlərin üçtərəfli görüşü baş tutdu

Tərəflər danışıqların nəticəyönümlü olacağına ümidvar olduqlarını ifadə ediblər



**Aprelin 6-da Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib.**

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirib və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğulayıb.

(səh.2)

# Sonu görünmür

Ukraynada müharibə illərlə davam edə bilər



**Avropa dövlətləri silahı yerə qoyacaq rus əsgərlərinə sığınacaq verəcək**

"Rusiya məqsədli şəkildə Ukrayna şəhərlərini yerlə-yeksan edir, humanitar koridorları blokadaya alır, aclıq böhranı yaradır, insanların gizləndiyi sığınacaqları məqsədli şəkildə bombalayır. Mariupol, Borodyanka, Xarkov və digər şəhərlərdə də vəziyyət Buçadakı kimidir".

(səh.4)



## ABŞ Putin və Lavrovun ailə üzvlərinə sanksiya tətbiq edib

**ABŞ Rusiya Prezidenti Vladimir Putinin qızları - Katerina Tixonova və Mariya Putinaya sanksiya tətbiq edib.**

APA "CNBC News"a istinadən xəbər verir ki, ABŞ Putinin qızları ilə yanaşı, xarici işlər naziri Sergey Lavrovun həyat yoldaşı və qızına da sanksiya tətbiq edib.

Rusiyanın sabiq Prezidenti və sabiq Baş naziri Dmitri Medvedev və Baş nazir Mixail Mişustin də daxil olmaqla, Milli Təhlükəsizlik Şurasının bütün üzvlərinə sanksiyaların tətbiq olunacağı gözlənilir.

"Biz hesab edirik ki, Putinin vardövlətinin çox hissəsi onun ailə üzvlərinin adınadır və buna görə də biz onları hədəfə alırıq", - adı açıqlanmayan yüksək səviyyəli administrasiya rəsmisi bildirib.

## Bakıda kişi dəhşət saçdı

O, keçmiş arvadını və özünü küçədə güllələyib öldürdü



**Bakıda qətl törədilib. Hadisə Sabunçu rayonunun Bakıxanov qəsəbəsində qeydə alınıb. Orta yaşlı kişi küçədə qadını, daha sonra da özünü gülləyərək öldürüb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Sabunçu rayonu ərazində Rasim Xəlilov həyat yoldaşı Misli Xəlilovanı özünə məxsus qanuni ov tüfəngi ilə gülləyərək öldürüb, sonra özünə atəş açaraq intihar edib. Məlumatda qeyd olunub ki, indiyə qədər ailədə münaqişə olması ilə bağlı polisə məlumat daxil olmayıb.

Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub. Ov tüfəngi maddi sübut kimi götürülüb.

## Azərbaycanda daha 38 nəfər koronavirusa yoluxub

1 nəfər vəfat edib, 59 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 38 yeni yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 792 141 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 782 143 nəfər müalicə olunaraq sağalıb, 9 701 nəfər vəfat edib. 297 nəfər aktiv xəstə sayını təşkil edib. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 230, bu günə qədər isə ümumilikdə 6 726 560 test icra olunub.



## BMT-nin strukturları dəyişdirilməlidir

Fuad Abbasov: "Təhlükəsizliklə bağlı qərarların verilməsində sadəcə BMT üzvü olan beş ölkə deyil, digər ölkələr, eləcə də, Türkiyə iştirak etməlidir"

(səh.4)

## "Putin nüvə silahından istifadə etmək istəyib"

"Sadəcə işi icra edənlər əmrə tabe olmayıblar"

(səh.5)





# Brüsseldə liderlərin üçtərəfli görüşü baş tutdu

## Tərəflər danışıqların nəticəyönümlü olacağına ümidvar olduqlarını ifadə ediblər

**Aprelin 6-da Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib.**

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirdi və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə edib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd edib. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirib.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edilib və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olunub.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional təhlükəsizliyə dair fikir mübadiləsi aparılıb. Daha sonra Azərbaycan Respublikasının Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında üçtərəfli görüşü başlayıb.

# Ərdoğan iddialıdır

## Seçkilərdə 6 müxalifət partiyasını məğlub edəcəyini vəd verib



**Türkiyədə 2023-cü ilin iyun ayında keçiriləcək prezident və parlament seçkiləri çox əhəmiyyətlidir.**

**APA xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

Türkiyə lideri 6 müxalifət partiyasının yaratdığı ittifaqa da münasibət bildirib: ”Küçədə bir-birini görüb salam verməyəcək altı nəfər bir masa ətrafında toplaşıb. Bunun bənzəri Macarıstanda da olmuşdu. Onların təlimatları haradan aldıqları məlumdur. Ortada razılaşdırdıqları bir proqram yoxdur, prezidentliyə namizədləri yoxdur. Proqram deyə ortaya çıxardıqları mətn xaricdə hazırlanıb onlara verilib”.

Ərdoğan 2023-cü ilin seçkilərində altı müxalifət partiyasına dərs verəcəklərini vəd edib.

”Bunun üçün çalışmalıyıq”, - Türkiyə dövlət başçısı vurğulayıb.

*Qeyd edək ki, bir müddət əvvəl Türkiyənin 6 müxalifət partiyasının lideri prezident üsul-idarəsinin parlamentar sistemlə əvəzlənməsi üçün bir araya gəlib. Bunlar İYİ Partiya lideri Maral Akşener, ”Səadət” lideri Təməl Karamollaoğlu, Demokrat Partiyasının lideri Gültəkin Uysal, Gələcək Partiyasının lideri Əhməd Davudoğlu, DEVA partiyasının lideri Əli Babacan və CHP lideri Kamal Kılıçdaroğludur.*

# AŞPA-nın yaz sessiyasının gündəliyi açıqlanıb

## Rusiya-Ukrayna münaqişəsinin nəticələrinə dair ümumi müzakirələr olacaq




**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyasının ikinci hissəsi aprelin 25-dən 28-dək keçiriləcək.**

Hibrid formatda təşkil ediləcək yaz sessiyasının əsas mövzusu Rusiya-Ukrayna münaqişəsinin nəticələrinə dair ümumi müzakirələr olacaq.

Assambleya, həmçinin Avropa Şurası ilə Avropa İttifaqı arasında strateji tərəfdaşlığın gücləndirilməsi, Avropada əsl demokratiyanın qorunması və təşviqi, hüquq-mühafizə orqanları tərəfindən həddindən artıq və əsassız güc tətbiqinin qarşısının alınması ilə bağlı hesabatları da müzakirə edəcək.

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı, həmçinin 2021-ci il üzrə illik fəaliyyət hesabatını təqdim edəcək və parlamentarilərin suallarını cavablandıracaq.

Sessiyanın gündəliyinə Avropa Şurası Parlament Assambleyasının üzvləri tərəfindən Avropa Şurasının Baş katibinə sual sessiyası, eləcə də Nazirlər Komitəsinin ənənəvi müraciəti də daxildir.

Assambleyanın yaz sessiyanın ilk günündə yekun gündəlik qəbul ediləcək.

# ABŞ Rusiyanın ədliyyə və maliyyə nazirlərinə sanksiya tətbiq edib




**ABŞ hökuməti Rusiyanın vəzifəli şəxslərinə qarşı sanksiya siyahısını genişləndirib.**

APA-nın xəbərinə görə, yeni siyahı ABŞ-ın Maliyyə Nazirliyinin saytında yer alır.

Siyahıda Rusiyanın ədliyyə və maliyyə nazirlərinin, gömrük xidməti rəisinin, prezident administrasiyası rəhbərlərinin, həmçinin Moskva merinin və peterburq qubernatorunun da adları yer alır.

Yeni siyahıda 11 nəfərin adı yer alır. ABŞ vətəndaşlarının bu şəxslərlə biznes əməkdaşlığı qurması qadağan edilir.

# Azərbaycanda uşaqlar arasında virus epidemiyası yayılıb

## Səhiyyə nazirliyinin eksperti: “Virus uşaqlardan valideynlərə də keçir”



**”Son bir aydır məktəblilər arasında hərarət, qusma və ishalla müşahidə edilən xəstəlik yayılıb”.**

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti pediatr Əkbər Quliyev deyib.

**Onun sözlərinə görə, bu uşaqlar arasında yayılan rotavirusla əlaqəlidir:**

”Bu, azyaşlı uşaqlarda da çox görülür. 5-10 yaş aralığında olan uşaqlarda yoluxma halları daha çox görülür. Bu artıq epidemiya halını alıb. Bu virus nəcisdən götürülən analizlə müəyyən edilir. Əsas məqam ondan ibarətdir ki, uşaqlarda bu zaman kəskin su itkisi baş verir. Çalışırıq ki, bunun qarşısını alaq. Təəssüf ki, rotavirusun simptomları bir həftədən bir aya qədər davam edir. Virus uşaqlardan valideynlərə də keçir”.

Körpələrin koronavirusa yoluxması məsələsinə gəldikdə isə pediatr bildirib ki, iki aylıq uşaq da koronavirusa yoluxa bilər: ”Hətta körpə doğulan kimi də bu virusa yaxalana bilər. Əgər ana hamiləlik dövründə koronavirusa yoluxubsa, uşaq virusla doğula bilir. Bunun qarşısı dərhal alınmalıdır”. /apa.az/

# Bakı-Quba yolu mərhələli təmir olunacaq



**Bakı-Quba yolu mərhələli təmir olunacaq. Bunu Trend-in suallarına cavab oalraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli deyib.**

O bildirib ki, Bakı-Quba yolunda mütəmadi olaraq təmir işləri icra olunur, ərazidə hərəkət müvəqqəti normallaşsa da, bir müddət sonra təmir işlərinin əhəmiyyəti itir. Bu səbəbdən də həmin yolun əsaslı şəkildə yenidən qurulmasına ehtiyac var:

”Bununla bağlı aidiyyəti üzrə məlumatlar təqdim olunub. Həmin təqdim olunmuş məlumatlar əsasında Bakı-Quba yolunun mövcud Bakı-Sumqayıt hissəsinin 30 kilometri təmir olunub. Hazırda yolun Tağıyev qəsəbəsi hissəsində 14 kilometr əsaslı yenidənqurma işləri icra olunur. Bu işlər mərhələli şəkildə davam etdiriləcək”, - qurum rəsmisi bildirib.

Onun sözlərinə görə, hazırda Bakı-Quba-Rusiya istiqamətində yeni avtomobil yolu inşa olunur.

”Yeni yolun inşasının bu ilin sonuna qədər yekunlaşdırılması planlaşdırılır. Ondan sonra hazırkı Bakı-Quba yolunda hərəkət intensivliyi azalacaq və həmin ərazidə də yenidənqurma işlərinə maneəsiz şərait yaranacaq. Tağıyev qəsəbəsində işlər yekunlaşdıqdan sonra mövcud Bakı-Quba yolunda yenidənqurma işlərinin aparılması nəzərdə tutulur”, - A.Nəcəfli vurğulayıb.



# “AMEA-da prezident seçkiləri hələlik gündəmdə deyil"

**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) prezident seçkiləri hələlik gündəmdə deyil.**

Bunu APA-ya açıqlamasında AMEA-nın prezidenti vəzifəsini icra edən, akademik Arif Həşimov deyib.

O bildirib ki, aprelin 27-də keçiriləcək Ümumi yığıncaqda yalnız illik hesabat müzakirə ediləcək.

”Prezident seçkilərinin nə zaman keçiriləcəyi barədə hələlik bir şey deyə bilmərəm”, - Arif Həşimov qeyd edib.

Akademik AMEA-nın elmi bölmələrinin və Rəyasət Heyəti aparatının strukturunun təkmilləşdirilməsi məsələsinə də aydınlıq gətirib.

O, institutların özünüidarəetmədə daha sərbəst hərəkət etməli olduğunu diqqətə çatdırıb və əlavə edib ki, bununla bağlı təkliflər olacaq.

”İndidən bir söz deyib istiqamətləri dəyişdirmək istəməzdim. Eyni zamanda, digər sahələrdə olduğu kimi, AMEA-da da gəncləşdirmə siyasəti aparılır”, - Arif Həşimov vurğulayıb.

# Ötən il 50 min Ermənistan vətəndaşı Rusiya pasportu alıb

**Ötən il 50 minə yaxın Ermənistan vətəndaşı Rusiya pasportu alıb.**

Azərtac xəbər verir ki, Rusiya DİN-in məlumatına görə, 2021-ci ildə 735 min 400 nəfər Rusiya vətəndaşlığını qəbul edib. Vətəndaşlıq alanların yarıdan çoxu Donbas və Luqans sakinləridir.

Keçən il Rusiya vətəndaşlığı alanlar siyahısında birinci yeri Ukrayna vətəndaşları (376 min nəfər) tuturlar. Ötən il, həmçinin 103 min Tacikistan, 49,9 min Qazaxıstan, 46,9 min Ermənistan, 31,9 min Özbəkistan vətəndaşı Rusiya pasportuna sahib olub.

# Partlayışda yaralanan qız vəfat etdi

## Stasionarda müalicə alanlardan ambulator müalicə üçün 9 nəfər evə göndərilib





**Səbail rayonu ərazisində yerləşən obyektdə baş vermiş partlayış zamanı xəsarət alanlardan bir nəfər 1999-cu il təvəllüdlü Fərqanə Eynullayeva dünyasını dəyişib.**

TƏBİB-dən ”Şərq”ə verilən məlumata görə, o, 60-62 faiz və III dərəcəli yanıq xəsarəti ilə reanimasiyada olan kritik ağır xəstələrdən biri idi.

Sözügedən hadisədə ümumilikdə 37 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb, 2 nəfər vəfat edib.

Hazırda tibb müəssisələrində ümumilikdə 12 nəfər müalicə alır. Onlardan 9-u TƏBİB-in tabeliyindəki tibb müəssisələrindədir.

Xatırladaq ki, TƏBİB-in tabeli müəssisələrdən vəziyyəti kritik ağır olan 2 nəfər özəl xəstəxanalardan birinə köçürülüb.

*Qeyd edək ki, xəsarət alan şəxslərdən hazırda TƏBİB-in tabeliyindəki tibb müəssisələrində reanimasiyada olan 4 nəfərdən 1-nin vəziyyəti kritik ağır, stasionarda müalicə alan 5 nəfərin vəziyyəti stabil ağır, 3-nün vəziyyəti orta ağır olaraq qiymətləndirilir.*

*Ümumilikdə stasionarda müalicə alanlardan ambulator müalicə üçün 9 nəfər evə göndərilib.*

# Avropa Məhkəməsi həqiqətin yanındadır

## Ermənistanın siyasi manipulyasiyasını rədd etdilər



**İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (AİHM) Ermənistanın növbəti vəsatətini rədd edib. Bunu Ali Məhkəmə sədrinin müavini, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov tviter hesabında yazıb.**

O bildirib ki, Avropa Məhkəməsi Azərbaycanın təqdim etdiyi mövqeyə uyğun olaraq 4 aprel 2022-ci ildə növbəti dəfə Ermənistanın müvəqqəti təminat tədbirləri barədə vəsatətini rədd edib: ”Qonşu ölkə anlamalıdır ki, beynəlxalq hüquq olan yerdə siyasi spekulyasiyalar əhəmiyyətsizdir”. Xatırladaq ki, Avropa İnsan Hüquqları Məhkəməsi ötən ilin iyul ayında da İrəvanın iddiasını rədd etmişdi. Məhkəmə Ermənistanın ”erməni hərbi-təxribatçılarının məhkəmələrinin dayandırılması” üçün verdiyi vəsatəti rədd etmişdi.

**Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov ”Şərq”ə açıqlamasında deyib ki, hüquqi baxımdan yetərli dəlil-sübut olmadığı, əsassız məhkəmə iddia olduğu üçün AİHM Ermənistanın vəsatətini rədd edib. Ekspert vurğulayıb ki, qərarın siyasi çalarları da var:** ”Ermənistan 44 günlük savaşda məğlub duruma düşdükdən sonra olan-qalan əhəmiyyətini də itirdi. Azərbaycan isə həm qalib ölkədir, həm də Avropanın mühüm qaz təminatçılarından biridir. Xüsusən, Ukrayna-Rusiya müharibəsindən sonra rəsmi Bakının cəlbediciliyi daha çox artıb. Son aylarda Avropanın aparıcı ölkələrinin, nüfuzlu təşkilatlarının rəsmiləri Azərbaycana ya birbaşa səfər edir, ya da telefon əlaqəsi saxlayırlar. Görünür, indiki məqamda Azərbaycanı incik salacaq, qəzəbləndirəcək addım atmaqdan çəkinirlər. Həm də Avropa Məhkəməsi məğlub Ermənistanın hüquqi məsələlər üzərində siyasi manipulyasiya ilə məşğul olduğunu görüb və İrəvanın absurd vəsatətini geri çevirib. Ermənistan həqiqi mənada cığalçılıq edir. Əlbəttə, istənilən halda Ermənistanın sərsəm iddialarının qəbul edilməməsi Azərbaycanın xeyrinədir”.

**İsmayıl Qocayev**

# Brüssel görüşündən ən çox narahat olan Rusiyadır

## Ermənistandakı aksiyaları “Qarabağ klanı”nın əli ilə Kreml təşkil edib



**Ermənistanda müxalif qüvvələr etiraz aksiyası keçiriblər. Aksiya iştirakçıları ”Nikolsuz Ermənistan”, ”Nikol satqındır”, ”Ermənistan, qalx” və s. şüarlar səsləndiriblər. Mitinqdə çıxış edənlər ”nəyin bahasına olur-olsun” yenə müharibəyə çağırış ediblər. Aksiyanın ”bəyanatında” Qarabağa iddialar da əksini tapıb.**

Qarabağın Azərbaycanın tərkibində heç bir statusla olmamasına xüsusi ”vurğu” edilib. Görünür, 44 günlük savaş və Ermənistan ordusunun darmadağın olması ermənilərə dərs olmayıb. Etirazları şərh edən analitiklərin fikrincə, Ermənistandakı revanşistlərin məqsədi Azərbaycanla sülh prosesinin başlanmasına mane olmaq, İrəvan hökumətinin öz öhdəliklərini icra etməsinə əngəl törətməkdir. **Politoloq Turab Rzayev ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistanda yaşanan hadisələrin həm daxili, həm də xarici səbəblərinə baxmaq lazımdır.** Ekspert vurğulayıb ki, etirazların daxili səbəbi odur ki, 30 il ərzində ölkəni korrupsiya, qohumbazlıq, yerlibazlıq bataqlığına çəkmiş cinayətkar generallardan ibarət ”Qarabağ klanı” yenidən hakimiyyəti ələ keçirmək istəyir: ”Revanşistlərin təxribatları gözləniləndir. Müxalifət hər xırda detaldan Baş nazir Nikol Paşinyana qarşı istifadə edərək çevrilişə nail olmağa çalışırlar. Ona görə də vaxtaşırı ”Nikol xaindir”, ”Türkiyə və Azərbaycan agentidir” kimi şüarlar səsləndirirlər. Belə təxribatları çox görəcəyik. Nikol Paşinyanın yenidən ”status” və ”həmsədrlər” məsələsinə qayıtmasının əsas səbəbi də müxalifətin təzyiqlərindən dolayı məcburən ”sərt ritorikaya” keçməsidir”.

**Siyasi şərhçiyə görə, Brüssel görüşündən narahat olan xarici qüvvələr də var. Xüsusən, Rusiyanın narahatlığı daha ciddidir:** ”Nəzərə alaq ki, Azərbaycan və Ermənistan tərəfləri arasında keçirilən onlarla görüşün ən uğurlusu birinci Brüssel görüşü olub. Məhz həmin görüşdən sonra İrəvan hökuməti Zəngəzur dəhlizinin ilk ayağı olan dəmiryol xəttinin çəkilməsinə razılıq vermişdi. Amma Moskvada, Soçidə və başqa yerlərdə dəfələrlə görüş baş tutsa da, real nəticə əldə edə bilməmişik. Rusiya Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə baş tutan əvvəlki görüşə qısqanclıqla yanaşmışdı. İndi də eyni reaksiyanı verir, çünki budəfəki Brüssel görüşündən ciddi nəticələr gözlənilirdi. Müsbət gözləntilər var idi. Rəsmi Bakının İrəvana görüş öncəsi 5 baza prinsipini təklif etməsi, Ermənistanın buna etiraz bildirməməsi deməyə əsas verirdi ki, hər iki tərəf kompromisə uyğun adekvat mövqe ortaya qoymağa hazırdır. Rusiya Avropa İttifaqının bölgədə güclənməsini və tərəflər arasında vasitəçilik etməsini qətiyyən istəmir. ”Qarabağ klanı”nın Paşinyana qarşı təşkil etdiyi etiraz aksiyaları Azərbaycan-Ermənistan arasında sülhə mane olmaq məqsədi daşıyır. Bu da ”Qarabağ klanı” ilə yanaşı, həm də Moskvanın işinə yarayır”.

**İsmayıl Qocayev**

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ukraynalı həmkarı Dmitro Kuleba arasında telefon danışığı aprelin 4-də də davam edib. Danışıq zamanı Ukraynadakı son vəziyyət müzakirə edilib. Mövlud Çavuşoğlu Türkiyənin Ukrayna-Rusiya müharibəsində mövqeyinin dəyişməz olduğunu bildirib.**



# "Türkiyənin vasitəçiliyi sülhə ümidləri cücərdir"

## Aqşin Kərimov: ”Rəsmi Ankaranın sülh prosesindəki rolu Qərbdəki bəzi dairələri qıcıqlandırır”

**Analitik Aqşin Kərimov Türkiyənin Ukrayna-Rusiya müharibəsindəki rolundan ”Şərq”ə danışarkən bildirib ki, rəsmi Ankara hər iki tərəfin tərəzisində etibarlı tərəfdaş statusunu qazanıb:**

”Onun hazırkı mövqeyi hər iki tərəfi qane edir. Hərçənd ki, Rusiya Türkiyəni Ukrayna məsələsində öz orbitində görmək istəyirdi. Türkiyənin Rusiyaya qarşı sanksiyalara qoşulmaması Ukraynanı qətiyyən narahat etmir. Çünki rəsmi Ankara Ukraynaya lazım olan dəstəyi nümayiş etdirir. Türkiyə hazırda müharibə alovunun sönməsi və sülhün təmini üçün çalışır və vasitəçilik missiyasında önə çıxır”.

**A.Kərimov martın 29-da Türkiyədə baş tutan Rusiya və Ukrayna nümayəndə heyətlərinin görüşünə diqqət çəkib:**

”İstanbulda danışıqlar başlayandan sonra Rusiya qoşunlarının bir hissəsini işğal etdiyi ərazilərdən çəkib. Bu əsasən Rusiyanın hərbi uğursuzluğuna görə baş versə də, belə nəticənin hasil olmasında İstanbul danışıqları da rol oynayıb.

Yəni Rusiya üçün razılaşma görüntüsü fonunda ”qürurlu” geri çəkilmə görüntüsü lazım idi, bunu İstanbul danışıqları vasitəsilə etdi”.

**Siyasi şərhçinin qənaətincə, bundan sonra Ukraynada döyüşlərin davam edəcəyi, əsasən ölkənin şərq və cənub istiqamətlərində döyüşlərin şiddətlənəcəyi gözlənilir:**

”Hazırda tərəflər döyüş meydanından masaya maksimalist tələblərlə getmək üçün hərbi əməliyyatları davam etdirirlər.

Ümumilikdə Türkiyənin vasitəçilik səyləri sülh üçün ümidləri cücərdir. Lakin rəsmi Ankaranın sülh prosesindəki rolu Qərbdəki bəzi dairələri qıcıqlandırır.

Bu mənada Türkiyəyə qarşı propaqanda dalğasının yeni mərhələsinin başlanması da gözləniləndir”.

**Günəş Mərd**

# Bakı və Ankara mövqeyində qətidir

## Sonunda Ermənistan daha praqmatik mövqe sərgiləməyə məcbur olacaq



**Xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının Xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.** Tərəflər bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, eləcə də Ukraynadakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**Nazirlər arasında baş tutan telefon danışığını ”Şərq”ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Türkiyə ilə Azərbaycan xarici siyasət məsələlərində koordinasiyalı fəaliyyət göstərirlər:**

”Təbii ki, Ermənistanla Azərbaycan münasibətlərin normallaşdırılması istiqamətində hər iki ölkə məsləhətləşmələr həyata keçirir. Ermənistan-Türkiyə münasibətlərinin normallaşması haqqında da tərəflər fikir mübadiləsi aparır.

Məhz Brüssel görüşü ərəfəsində də bu kimi danışıqların baş tutması əsasən Brüssel görüşünə həsr olunub. Təbii ki, burada Ukrayna məsələsi də müzakirə predmeti olur.

Çünki Rusiya-Türkiyə münasibətləri də bu məsələdə müəyyən dərəcədə Azərbaycan-Rusiya əlaqələrinə təsir göstərir. Buna baxmayaraq, əsas müzakirə mövzusu Brüssel görüşü və Ermənistanın görüşdən sonra hansı mövqe sərgiləyəcəyi ətrafındadır”.

*Politoloq hesab edir ki, Bakı ilə Ankaranın qətiyyətli mövqeyi axır ki, Ermənistanın daha da praqmatik mövqe sərgiləməsinə gətirib çıxaracaq:*

”Geosiyasi proseslər, hərbi-siyasi qarşıdurmalar deməyə əsas verir ki, Ankara ilə Bakı ikitərəfli əlaqələri daha da möhkəmləndirəcək. Birgə danışıqlar müsbət əhəmiyyət kəsb edir”.

**Çimnaz Şahlar**

# Bələdiyyələrin sayı iki dəfə azaldılmalıdır

## Razi Nurullayev hesab edir ki, Türkiyə modeli əsas götürülməlidir

**“Bizim dövlət qurumları gözəl hesabat hazırlamağı bacarır. Kaş ki, hər şey yazılanlar qədər sadə, yazılanlar qədər ümidverici olsun”. Bunu deputat Razi Nurullayev parlamentin ötən gün keçirilən iclasında deyib. Millət vəkili bildirib ki, icra hakimiyyətləri və yerlərdəki nümayəndələr elə adamları önə verirlər ki, onlar daha çox əmrlərə tabe olsunlar.**

Parlament üzvünün sözlərinə görə, bələdiyyələr siyasiləşir və icra hakimiyyətlərinin əmrinə tabe olan quruma çevrilirlər: ”Onların çoxu mövcud resurslardan istifadədən başqa digər qazanc yolu bilmir. Mövcud resurslar da çoxdan talanıb, satılıb, bağışlanıb və darmadağın edilib. Küncdə-bucaqda nə qalıbsa, indi onun mübarizəsi gedir. Hərçənd, bələdiyyələrin qazanc götürməsi üçün qanunvericiliklə bütün məsələlər həll edilib. Bələdiyyələr yararlana bilirmi? Əlbəttə, yox. Onlara biznes təlimi keçmək lazımdır, qazanc götürmək üçün biznes planları və icra mexanizmini öyrətmək vacibdir”.

**Deputat bildirib ki, qazanc götürmək üçün yerli resurslar çox zəifdir:**

”Olanları da əllərindən almışıq. Mədən vergisini də bələdiyyələrdən alıb mərkəzləşdirdiniz. Mən əleyhinə səs verdim, çünki bu aktı bələdiyyələr üçün çıxarılan ölüm hökmü kimi gördüm. Sözün qısası, bələdiyyələrin iki dəfə azaldılmasına çağırış edirəm. Təklifim budur ki, pilot layihə üçün 30 bələdiyyə seçilsin - 5 şəhər, 5 rayon və 20 kənd bələdiyyəsi. Xaricdən, qonşu Türkiyədən, digər ölkələrdən mütəxəssislər cəlb edək. Onlara 4-5 il zaman verək ki, bələdiyyələrdə pilot layihə həyata keçirib uğurlu işlərə imza atsınlar. Yerli mövcud resurslardan biznes dəyəri yaratsınlar. Uşaq bağçası, poliklinika, məktəb, xırda biznes sexləri, emal müəssisələri qursunlar. Banklardan və dövlət fondlarından ucuz kreditlər cəlb edib iş qura bilsinlər, xaricdən kredit alsınlar. Onlara bu şəraiti yaradaq”.



**R.Nurullayev qeyd edib ki, əgər pilot layihə uğurlu olarsa, bütün bələdiyyələrə tətbiq edilə bilər:** ”Konkret iş görmək və dəyər yaratmaq zərurətdir. 23 ildir ki, bələdiyyələr yaradılıb. Hələ də onlar ”torpaq satan” imici ilə tanınırsa, vətəndaşlar vergi vermək istəmirsə, inam yoxdursa, xalq tərəfindən mənfi münasibətə malik qurumlardan biridirsə, bu, onların günahı deyil, bizim hamımızın günahıdır. Xahiş edirəm, verdiyim təklif dəyərləndirilsin və mümkünsə, yazılı şəkildə cavablandırılsın”.

**İsmayıl**

# “Sosial evlər tələbəyə də verilir, yeni evlənənə də...”

## Vahid Əhmədov: “Lakin iş yeri olmayanlara verilməsi bir qədər problemli məsələdir”



**Uzun müddətdir, evsizlik gənc ailələr üçün problemdir. Xüsusilə də, evlənmək mərhələsində olan gənclərin bir çoxu bundan əziyyət çəkir, bəzi hallarda ailə qurmaqdan imtina edirlər. Halbuki, “evlilik” sözünün kökündə “ev” kəlməsi var.**

Boşanmalar da çox zaman evszlik səbəbindən baş verir. Doğrudur, hökumət mövcud problemin aradan qaldırılması istiqmaətində addımlar atdı. Buna Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) misal göstərə bilərik. Amma MİDA da gözləntiləri doğrultmadı. Agentliyin satışa çıxardığı mənzillər gənc ailələr üçün əlçatan olmadı.

Maraqlıdır, belə bir məqamda dövlət daha hansı addımlar ata bilər?

**Sualmızı cavablandıran iqtisadçı millət vəkili Vahid Əhmədov “Şərq”ə bildirib ki, ev almaq üçün dövlət gənclərə hər bir şərait yaradıb:**

Əlbəttə, gənclərin işləməsi vacibdir. Azərbaycanda gənclərə kreditlə evlər verirlər. Hansı gənc işləyir, elə də böyük problemi yoxdur. Çünki sistemə çıxan mənzillərdən alırlar, kirayə tuturlar. Düzdür, son vaxtlar, həll edilməyən müəyyən məsələlər olub. Əvvəllər bu proseslər çox idi, nəzarətdə idi. Hətta güzəştli kreditlər verirlər. Həmin kreditin məbləğini və faizini aşağı salırlar. Güzəştlər kifayət qədərdir. Ola bilər, bəzi vətəndaşlar eşitməyiblər və ya istifadəni bilmirlər. İstənilən gənc işləməlidir ki, müəyyən gəlirə sahib olsun”.

**Millət vəkili qeyd edib ki, evlərlə bağlı qərarlar və layihələr var:**

“Sosial evlər paylayırlar. Tələbəyə də verilir, təzə evlənənə də. Lakin iş yeri olmayanlara verilməsi bir qədər problemli məsələdir. Çünki ödəniş zamanı çətinliklər yarana bilər. Dövlət büdcəsindən kifayət qədər maliyyə ayrılıb”.

**Cəmilə Əzim**



# QHT-lərin səsi artıq Şuşadan gələcək

**Rauf Zeyni:**
“Bizə tələb olunan dəstək verilsin ki, ən yüksək səviyyədə fəaliyyətimizi tənzimləyək”

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının Şuşa şəhərində növbəti iclası keçirilib.**

Toplantını Müşahidə Şurasının sədr müavini, Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev açıb. Sədr müavini ”Şuşa ili”nə həsr edilmiş xüsusi qrant müsabiqəsi və 2022-ci il üçün kiçik qrant müsabiqələrinin mövzuları barədə fikirlərini bildirib. Həmçinin QHT-lərin hər iki müsabiqəyə ictimai əhəmiyyət kəsb edən layihələr təqdim edəcəyinə əmin olduğunu qeyd edib.

Yığıncaqda Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaq qismində iştirak edib. O, çıxışı zamanı Agentliyin ”Şuşa ili”nə həsr edilmiş qrant müsabiqəsi keçirməsindən məmnun olduğunu vurğulayıb. A.Kərimov bu məqsədlə birgə müzakirənin təşkil edilməsinin səmərəli olduğunu da bildirib.

Müşahidə Şurasının üzvləri müsabiqə mövzuları ətrafında müzakirələr aparıblar. Müvafiq qərarlar qəbul ediblər.

Qeyd edək ki, Agentlik yaxın günlərdə hər iki müsabiqəyə layihələrin qəbulunu elan edəcək.

**Azərbaycan Milli QHT Forumunun sədri Rauf Zeyni ”Şərq”ə açıqlamasında bildirib ki, ölkə prezidenti bu ili ”Şuşa İli” elan edib:**

”2023-cü ildə Şuşa şəhəri başımızın tacı olaraq ”Türk dünyasının mədəniyyət paytaxtı” seçilib. QHT-lərə Dövlət dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini, icraçı direktoru və Müşahidə Şurasının üzvlərinin də iştirakı ilə Şuşa şəhərində tarixi iclasın keçirilməsi, bu ilə həsr olunmuş layihələrin elan edilməsi, o cümlədən cari il üçün müzakirə və nəzərdə tutulan fəaliyyət planlarının gələcəkdə elan olunması vətəndaş QHT-lər və vətəndaş cəmiyyətinin birbaşa diqqət mərkəzində olan məsələdir. Arada müəyyən fasilələrin, problemlərin olmasına baxmayaraq bu ildən QHT-lərə davamlı, dayanıqlı və stabil qrantların verilməsinin tərəfdarıyıq. Xüsusilə, dövlətçilik, azərbaycançılıq və ölkəmizin milli maraqları ilə əlaqədar olaraq aktivlik göstərən, həmçinin ölkədə və beynəlxalq aləmdə xüsusi nüfuzu olan, eyni zamanda bir çox layihələrə imza atmış təşkilatlar mövcuddur. Onların əlbəttə ki, çox böyük gözləntiləri var. Həm Şuşa ili, həm də bütövlükdə illik fəaliyyət barədə indiki aydan etibarən elanları izləyir, gözləyirik. Bizə tələb olunan dəstək verilsin ki, ən yüksək səviyyədə fəaliyyətimizi tənzimləyək”.

**Sücayət Mehti**



# Sonu görünmür

## Ukraynada müharibə illərlə davam edə bilər

**İsmayıl Qocayev**

**“Rusiya məqsədli şəkildə Ukrayna şəhərlərini yerlə-yeksan edir, humanitar koridorları blokadaya alır, aclıq böhranı yaradır, insanların gizləndiyi sığınacaqları məqsədli şəkildə bombalayır. Mariupol, Borodyanka, Xarkov və digər şəhərlərdə də vəziyyət Buçadakı kimidir”.**

Bunu Ukrayna Prezidenti Vladimir Zelenski BMT Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı deyib. Zelenski bildirib ki, Rusiya Ukraynada törətdiklərini etiraf etmir, müxtəlif versiyalar səsləndirir, hər kəsi günahlandırır: ”Rusiya tərəfi iddia edir ki, bu, səhnələşdirilib. Biz bütün faktları toplayırıq, bu yöndə beynəlxalq institutlarla işləyirik, jurnalistlərin bu ərazilərə girişini təmin edirik ki, onlar baş verənləri öz gözləri ilə görsünlər”. O, Ukraynanın hər zaman başqa ölkələrin çətin vaxtlarında yanında olduğunu vurğulayıb: ”Ona görə də bu gün Ukraynanın haqqı var ki, BMT Təhlükəsizlik Şurasından tələb etsin ki, Ukraynada sülhün təmin olunması ilə bağlı qərar versin. Əgər siz qərar verə bilmirsinizsə, o zaman iki şey edə bilərsiz - təcavüzkar olan Rusiyanı BMT Təhlükəsizlik Şurasından çıxarın ki, o, veto hüququndan istifadə edə bilməsin. Və digər seçim, əgər müzakirə etməkdən başqa əlinizdən bir iş gəlmirsə, özünüzü buraxın. Ukrayna sülh istəyir, Avropa sülh istəyir və ən əsası dünya sülh istəyir”.

### “Rusiya Ukraynadakı kənd təsərrüfatını vurur, aclıq olacaq”

Zelenski deyib ki, Rusiya Ukraynadakı bütün kənd təsərrüfatı müəssisələrini, aqrar texnikaları məhv edir, limanları blokadaya alır: ”Çünki aclığa öz silahı kimi baxır. Onlar ardıcıl olaraq yanacaq anbarlarını, qida paylama mərkəzlərini, hətta adi kənd təsərrüfatı texnikasını məhv edir, hər yeri minalayırlar. Bundan başqa ruslar bizim kənd təsərrüfatı məhsulları ilə dolu olan gəmilərlə birlikdə limanları da bağlayıblar. Ukrayna dünya ərzaq bazarında aparıcı dövlətlərdən biridir. İxracımız olmasa, təkcə defisit yox, Afrika və Asiyanın bir sıra ölkəsi üçün aclıq təhlükəsi yaranacaq. Çünki kifayət qədər istehsal həcmi olmayacaq və qiymətlər xeyli artacaq”.

### “Rusiya orduya yeni axmaqları toplayır”

Zelenski bildirib ki, Rusiya hərbi məktəblərin kursantları arasında Ukraynada döyüşmək istəyənləri axtarır: ”Ukrayna Silahlı Qüvvələri düşmənin ölkənin dərinliklərinə keçməyə çalışdığı ərazilərin əksəriyyətini nəzarətdə saxlayır. Ən çətin vəziyyət əvvəlki günlərdə olduğu kimi, Donbas və Xarkov istiqamətindədir. Amma biz davam edirik. Bizim müdafiəçilərimiz rus qoşunlarını dayandırmaq üçün hər şeyi edir. İşğalçılar sayca və texnika baxımından üstündür. Rusiya liderlərinin bütün hərbi məktəblərin kursantları, döyüş təcrübəsi olan insanlar və çağırışçılar arasından yeni axmaqları toplamaq cəhdlərindən xəbərimiz var. Onların hamısını qırğına, növbəti hücuma göndərmək istəyirlər. Amma bizim başqa seçimimiz yoxdur, torpağımızın, xalqımızın taleyi həll olunur. Biz nə üçün mübarizə apardığımızı bilirik və qələbə üçün hər şeyi edirik”.

### Kuleba Qərbə növbəti çağırış edib

Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba Qərb ölkələrini Kiyevə hərtərəfli dəstək verməyə, Rusiyaya qarşı daha güclü sanksiya tətbiq etməyə və bu müharibənin genişlənməsinin qarşısını almaq üçün daha çox silah göndərməyə çağırıb. Qeyd edək ki, Avropa Birliyi Rusiyaya beşinci sanksiya paketini bəyan edib. Rusiya kömürünün idxalına embarqo və Rusiyanın ən böyük banklarından biri olan VTB-yə qarşı yeni məhdudiyyətlər tətbiq olunacaq.



Avropa dövlətləri silahı yerə qoyacaq rus əsgərlərinə sığınacaq verəcək

### “Aİ-nin Rusiya yanacağına ödədiyi vəsait Ukraynaya hərbi yardımdan 35 dəfə çoxdur”

Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell deyib ki, Ukraynada müharibə başlayandan Avropa İttifaqı (Aİ) Rusiyadan 35 milyard avro dəyərində yanacaq alıb. O bildirib ki, Aİ bu müddətdə Ukraynaya cəmi 1 milyard avro dəyərində silah-sursat yardımı edib: ”Biz ukraynalılara özlərini müdafiə etmələri üçün yardım etməliyik. Biz Ukraynaya 1 milyard avro vermişik. Bu, çox görünə bilər, lakin bu məbləği biz (Rusiya Prezidenti Vladimir - red.) Putinə bizə tədarük etdiyi enerjiyə görə hər gün ödəyirik. Bu gün biz kömür alışına son veririk, lakin bunun həmin məbləğdəki payı çox kiçikdir”.

### “Roma Papası Buçada baş verənləri qınayıb, Ukrayna bayrağını öpüb”

Roma Papası Fransisk Ukraynanın Buça şəhərində törədilmiş qətliamı qınayıb. Papa Fransisk Buça şəhərindən göndərilmiş Ukrayna bayrağını öpüb: ”Ukraynadan son xəbərlər bizə rahatlıq və ümid gətirmək əvəzinə Buça qətliamı kimi yeni vəhşiliklər gətirdi. Bu müharibəni dayandırın! Qoyun silahlar sakit qalsın! Ölüm və dağıdıcılığı dayandırın!”. Fransisk çıxışının əvvəlində BMT-ni qeyri-effektivlikdə ittiham edib: ”Ukraynadakı müharibə fonunda biz BMT-nin qeyri-effektivliyinə şahid oluruq”.

> Rusiya məğlub olduğunu artıq dərk edir, sadəcə olaraq, geri çəkilmək Putin üçün intihara bərabərdir”

### “Buçada ən azı 25 qız və qadına təcavüz edilib”

Ukraynanın İnsan Haqları üzrə Müvəkkili Lyudmila Denisova Buçada Rusiya hərbçiləri tərəfindən ən azı 25 qız və qadına təcavüz edildiyini deyib. Onun sözlərinə görə, yardım məqsədi ilə yaradılmış ”qaynar xətt”ə Rusiya hərbçilərinin zorladığı 14-24 yaş aralığında olan 25 qız və qadın tərəfindən zənglər daxil olub: ”Biz bu dəhşətli cinayətləri sənədləşdirməyə davam edəcəyik və hər bir cinayətkar cəzalandırılacaq”.

Qeyd edək ki, Buça meri Anatoli Fedoruk işğal zamanı şəhərdə 320 mülki şəxsin rusiyalı hərbçilər tərəfindən qətlə yetirildiyini bildirib. Rusiya tərəfi isə Buçada törədilmiş qətliama görə məsuliyyət daşımadığını bəyan edib.

### “Biz iki qlobal güclə üzləşirik: Çin və Rusiya”

ABŞ Silahlı Qüvvələrinin generalı Mark Milley qeyd edib ki, Rusiyanın Ukraynanı işğalı Avropa və bütün dünyada gördüyü sülh və təhlükəsizliyə ən böyük təhdiddir: ”Rusiyanın Ukraynanı işğalı yalnız Avropada sülh və sabitliyə deyil, dünyada sülh və sabitliyə zərbə vurmaq təhdididir ki, mənim valideynlərim və amerikalı nəsillər bunun müdafiəsi üçün çox mübarizə aparıb. Biz iki qlobal güclə üzləşirik: Çin və Rusiya. Nəzərəçarpacaq hərbi imkanları olan bu ölkələr qaydalara əsaslanan hazırkı qlobal nizamı fundamental şəkildə dəyişmək niyyətindədir. Biz daha qeyri-stabil bir dünyaya daxil oluruq və böyük beynəlxalq münaqişə üçün potensial azalmır, artır”. General Ukraynada münaqişənin illərlə davam edə biləcəyini də vurğulayıb.

### Aİ Ukraynada tapşırıqları icra etməyən rusiyalı hərbçilərə sığınacaq verə bilər

Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel Ukraynada müharibəyə qatılan rus əsgərlərinə çağırış edib. Mişel deyib ki, Rusiyanın hərbi rəhbərliyinin tapşırıqlarını icra etməyən hərbçilərə sığınacaq verilə bilər: ”Mənim bu müharibədə iştirak edən rus əsgərlərinə mesajım var. Əgər siz ukraynalı bacı və qardaşlarınızın öldürülməsində iştirak etmək istəmirsinizsə, əgər siz cinayətkar olmaq istəmirsinizsə, o zaman silahlarınızı atın, savaşmağı dayandırın və döyüş meydanını tərk edin. Üzv ölkələrdən bəzi rəsmilər təklif edir ki, Rusiya hərbi qüvvələrinin tapşırıqlarını icra etməyənlərə sığınacaq verək. Düşünürəm ki, bu, dəyərli ideyadır və reallaşdırılmalıdır”. Aİ Şurasının prezidenti qeyd edib ki, Rusiya qüvvələrinin Ukraynada mülki əhaliyə qarşı qəddarlığının limiti yoxdur.

Şarl Mişel Rusiyanı müharibə cinayəti törətməkdə ittiham edib: ”Biz bu reallığı görürük, bütün bunları törədənlər məsuliyyətə cəlb olunmalı və ağır nəticələrlə üzləşməlidir”.

### Almaniya Ukrayna ilə təhlükəsizlik zəmanətləri barədə məxfi müzakirələr aparır

Almaniya Kansleri Olaf Şolts Bundestaqda çıxışı zamanı deyib ki, Almaniya təhlükəsizlik zəmanətləri ilə bağlı Kiyevlə məxfi müzakirələr aparır: ”Biz Ukrayna ilə təhlükəsizlik təminatı ilə bağlı danışıqlar aparırıq. Bu danışıqlar məxfi xarakter daşıyır”.

### “Ukrayna ilə danışıqlar prosesi pozulmayıb, davam edir”

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Ukrayna ilə danışıqlar prosesi davam edir, qarşıda uzun yol var, lakin indi hər şey ağır gedir: ”Təbii ki, biz Ukrayna tərəfdən daha çox dinamika görmək istərdik”. O, danışıqlar prosesinin pozulmadığını və davam etdiyini vurğulayıb. Onun sözlərinə görə, Rusiya danışıqlar yolu ilə hərbi əməliyyatları dayandırmaq istəyir: ”Zelenski Ukrayna prezidentidir və biz onun Rusiya nümayəndə heyətinin ona dəqiq şəkildə məlumat verdiyi şərtlərimizlə razılaşmasında maraqlıyıq”.

### “Moskva Kiyevlə siçan-pişik oynamayacaq”

Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Moskva Kiyevlə siçan-pişik oynamayacaq: ”Bizi Ukrayna tərəfinin müqavilə bağlanarsa, bir neçə gün ərzində bütün hərbi əməliyyatların dayandırılmasını, Rusiya Silahlı Qüvvələrinin Ukraynanı tərk etməsini və bundan sonra referendum və parlamentdə ratifikasiya keçirməli olduğunu tələb etmək qərarına gəlməsi narahat edir. Çox böyük ehtimal var ki, bu ratifikasiya və referendum mənfi nəticə verdikdə, danışıqlar prosesinə yenidən başlamaq lazım gələcək. Biz belə siçan-pişik oynamaq istəmirik”.

### “Tərəflər arasında razılaşmanın ola biləcəyini düşünmürəm”

**Ukrayna-Rusiya müharibəsinin gedişatını ”Şərq”ə şərh edən politoloq Azər Rəşidoğlu deyib ki, Putin Rusiyası öz imzasına və sözünə hörmət qoymur. Lakin analitikin fikrincə, Rusiya məğlub olduğunu artıq dərk edir:** ”Sadəcə olaraq, geri çəkilmək Putin üçün intihara bərabərdir. Qərb isə savaşın və sanksiyaların davam etməsində maraqlıdır. Bu baxımdan, tərəflər arasında tezliklə razılaşmanın ola biləcəyini düşünmürəm. Proseslər Putinin devrilməsinə və ya siyasi səhnədən çəkilməsinə qədər davam edəcək”.

---

# Pomidor turşusundan iki uşaq zəhərləndi, biri öldü

## Evdə hazırlanan turşular nəinki uşaqlar üçün, böyüklər üçün də ciddi təhlükədir





**Qida zəhərlənməsi şübhəsi ilə Bakıdakı Kliniki Tibbi Mərkəzə yerləşdirilən 2 azyaşlıdan birinin həyatını xilas etmək mümkün olmayıb. Mərkəzin Mətbuat xidmətindən ”Şərq”ə verilən məlumatına görə, uşaqlar bu gün Saatlı Rayon Mərkəzi Xəstəxanasının göndərişi ilə KTM-yə gətirilib.**

Qeyd olunub ki, dəqiqləşdirilməmiş bakterial qida zəhərlənməsi diaqnozu ilə 12:45-də Mərkəzə yerləşdirilən uşaqlardan biri 2019-cu il təvəllüdlü X.F 13:08-də vəfat edib: ”Digəri 2013-cü il təvəllüdlü M.F reanimasiyaya yerləşdirilib, vəziyyəti ağır olaraq qalmaqdadır. Ehtimal olunur ki, uşaqlar pomidor turşusunun suyunu içiblər”.

**Hadisə ilə bağlı ”Şərq”ə danışan pediatr Vaqif Qarayev qeyd etdi ki, əgər zəhərlənmə ev şəraitində hazırlanan turşudan baş veribsə, bunun adı batulizmdir:**

- Evdə hazırlanan turşular nəinki uşaqlar üçün, böyüklər üçün də ciddi təhlükədir, əgər düzgün hazırlanmayıbsa.  Çünki müxtəlif tərəvəzlər ev şəraitində konservləşdirildiyi zaman texnologiyaya düzgün əməl edilmədiyindən zəhərlənmələrə səbəb olur. Bunun da elmi adı batulizmdir. Batulizmi oksigensiz şəraitdə artıb-çoxalan bakteriyalar yaradır. Toksinlər çox güclü olduğundan ölümlə də nəticələnə bilir. Azyaşlılar buna əlbəttə dözməz. Böyüklər, yaşlı insanlar arasında da konservləşdirilmiş məhsullardan ölüm halları olur. Baxır, toksinin miqdarına və nə zaman təcili tibbi yardım göstərildiyinə. Batulizm - zəhərlənmə əleyhinə vaxtında vaksin vurulduqda təhlükənin qarşısını almaq olur. Lakin vaksinin vurulması, tibbi müdaxilə gecikdirildiyində artıq qarşısını almaq mümkün olmur.

Pediatr qeyd etdi ki, konservləşdirilmiş məhsulların əleyhinə deyil:

- Bu bizim məişətimizdə var. Yaxşı ənənədir. Evdar qadınlar xüsusən yayda qışa hazırlıq görür. Lakin şərtlərə düzgün əməl etsinlər. Qapağı qabarmış balonu açıb istifadə etməsinlər. Uzun müddət qalmış turşuları gətirib süfrəyə qoymasınlar. Hər bir ərzağın istifadə müddəti, yararlılıq vaxtı var. Bu məsələlərə diqqət edilməlidir. Evdə uşaq varsa, ikiqat diqqətli olmaq lazımdır. Uşaq orqanizminə zərər verəcək qidalardan uzaq dursunlar.  Böyüklər də, əgər mədələrində hansısa xəstəlik, narahatlıq varsa, turşuya qoyulmuş məhsullardan imtina etməlidirlər.

**Pediatr valideynlərə xəbərdarlıq etdi:**

- Zəhərlənmə təkcə konservləşdirilmiş qidalardan baş vermir. Çirklənmiş qidalar da uşaqlarda zəhərlənməyə, qarın ağrısına, ishala səbəb ola bilər. Dəfələrlə müşahidə etmişəm ki, ana küçədə övladının əlinə ”perajki”, dönər... və sair verib, uşaq küçədə yeyə-yeyə gedir. Ya da avtobusda, metroda görürük ki, valideyn yanında uşağı gəldi əyləşdi, çantasından nəsə bir ərzaq çıxarıb verdi uşağa. Bu uşaq avtobusa, metroya çatanadək əlini necə-necə səthə sürtüb, əlində nə qədər toz zərrəcikləri, mikrob var. Bu halda ona yemək üçün nəsə vermək real təhlükədən başqa bir şey deyil. Versinlər, yedizdirsinlər övladlarını, amma yolüstü yox, hərəkət zamanı yox. Uşaq məktəbdən çıxıb, acıb. Başa düşürəm. Əvvəlcə uşağın əlini yumaq lazımdı, heç olmasa, nəm salfetlə silmək olar. Əyləşsinlər bir yerdə, skamyada, uşağın əllərini təmizləsinlər, sonra yemək versinlər. 3 ildir dünya bağırır ki, əllərinizi tez-tez yuyun, dezinfeksiyaedici məhlullardan istifadə edin, maska taxın, bizim camaat elə bil eşitmir. Xüsusilə analar bu məsələdə diqqətli olmalıdırlar.

**Məlahət Rzayeva**

---

# BMT-nin strukturları dəyişdirilməlidir

## Fuad Abbasov: “Təhlükəsizliklə bağlı qərarların verilməsində sadəcə BMT üzvü olan beş ölkə deyil, digər ölkələr, eləcə də, Türkiyə iştirak etməlidir”



**Aprelin 5-də Ukrayna Prezidenti Vladimir Zelenski Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında çıxış edib. Dövlət başçısı BMT haqqında danışarkən bu təşkilatın dünyada sülhü effektiv şəkildə təmin edə bilmədiyini bəyan edib:**

”Aydındır ki, təcavüzkarın sülhə məcbur edilməsini təmin etməli olan əsas institut sadəcə olaraq effektiv işləyə bilmir”. V.Zelenski ”BMT yaradılarkən dünyada sülhün təmin ediləcəyinə dair verilən zəmanət haradadır?” sualını verib.

**Siyasi şərhçi Fuad Abbasov Ukrayna dövlət başçısının BMT-nin fəaliyyətsizliyi ilə bağlı  açıqlamasını ”Şərq”ə şərh edib:**

”BMT  İraq, Liviya  müharibəsində, eləcə də, ”Ərəb baharı”nın meydana gəldiyi digər ölkələrdə öz fəaliyyətsizliyini göstərib. O mərkəzi ofisi Nyu-York şəhərində yerləşən və  Amerika siyasətindən asılı təşkilatdır. Artıq BMT-nin tərkibinin dəyişdirilməsi çox vacib şərt olaraq gündəmə gəlib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz çıxışlarında dəfələrlə ”Dünya beşdən böyükdür”-, deyərək çağırış edib. Yəni təhlükəsizliklə bağlı qərarların verilməsində sadəcə BMT üzvü olan beş ölkə deyil, digər ölkələr, eləcə də, Türkiyə iştirak etməlidir”.

**Analitik diqqətə çatdırıb ki, BMT ikinci dünya müharibəsindən sonra alınmış  qərarlar üzərində duran bir təşkilatdır:**

”O, sadəcə beş ölkənin qərarı ilə fəaliyyət göstərir. Hətta Qarabağ məsələsində bu təşkilatın uzun illər öncə qəbul etdiyi qətnamələri Azərbaycan əsgərlərinin yerinə yetirdiyinin şahidi olduq. Bu onu göstərir ki, gec-tez BMT-nin strukturu dəyişdirilməli və Təhlükəsizlik Şurasının üzvlərinin sayı artırılmalıdır”.

**Günəş Mərd**

---

# "Özünü vətənpərvər kimi aparmır"

## Kadırov Peskovu tənqid atəşinə tutdu



**Rusiya Prezidenti Vladimir Putinə yaxınlığı ilə tanınan Çeçenistan lideri Ramzan Kadırov Kremlin sözçüsü Dmitri Peskovu tənqid atəşinə tutub.**

”Şərq” ”HaberGlobal”a istinadən xəbər verir ki, o, Peskovu əsl vətənpərvər kimi davranmamaqda ittiham edib. Kadırov bildirib ki, bununla bağlı nəsə etmək lazımdır.

Britaniyanın ”The Times” qəzetinə danışan Rusiya təhlükəsizlik xidmətinin yüksək rütbəli əməkdaşı Kadırovun Ukraynaya müdaxiləsindən cəsarətləndiyini bildirib:

”Kadırov Kremldə təhlükəsizlik qanadının liderlərini gözdən salmaq üçün güclü kampaniyaya başlayıb. İndi o qədər qarışıqlıq var ki, o, uğur qazana bilər. Əgər Putin, ona təhlükəsizlik blokunu qismən də olsa, versə, sabah bütün Rusiya onun əlində olacaq.

Məsələ ilə bağlı danışan Peskov, nümayəndələrin  kimin ən çox vətənpərvər olduğunu sübut etməklə bir-birini ötməyə çalışmasının faydasız olduğunu deyərək, Kadırovun fikrilərini  rədd etməyə çalışıb.

*Qeyd edək ki, Çeçenistan lideri ötən həftə də İstanbulda keçirilən Rusiya-Ukrayna danışıqları ilə bağlı nümayəndə heyətinin rəhbəri Vladimir Medinskini hədəfə alıb.*

**Çimnaz Şahlar**

# "Putin nüvə silahından istifadə etmək istəyib"

## “Sadəcə işi icra edənlər əmrə tabe olmayıblar”



**Rusiya ilə Ukrayna arasında davam edən müharibə planetin ən aktual mövzularındandır. Mütəxəssislər savaşı təkcə hərbi və siyasi cəhətdən təhlil etmirlər. Eyni zamanda hər iki dövlətin prezidentlərinin davranışları, atdıqları addımlar müzakirə olunur. Bir çoxlarının fikrincə, Rusiya Prezidenti Vladimir Putinin ”beli daşa dəyib”.**

Əksəriyyət düşünür ki, Moskva indiyədək hərbi əməliyyatlardan qalib ayrıla bilməyibsə, bundan sonrakı proseslər onun əleyhinədir. Bunu dövlət başçılarının, həmçinin digər rəsmilərin ritorikaları ilə izah edənlər də var. Həqiqətən də, liderlərin çıxışlarındakı tezislər, bədən hərəkətləri və verdikləri subliminal mesajlar fərqlidir. Bəs bunlar nəyə işarədir?

*Bu barədə tanınmış psixoloq, hərbi ekspert Azad İsazadə ilə həmsöhbət olduq:*

**- Hazırda Rusiya Prezidenti Vladimir Putinin müəyyən psixoloji problemləri olduğu deyilir. Sizcə, buna əsas var, yoxsa deyilənlər dezinformasiyadır?**

- Fikrimcə, onun ciddi psixoloji problemləri var. Putin pandemiya dövründə kovidfobiya formasında psixoloji pozuntu qazanıb. Mətbuatda yazılanlara inanıb Putinin onkoloji xəstə olduğunu da nəzərə alsaq onun ciddi psixoloji problemi olduğunu deyə bilərik. Çünki onkoloji xəstəlikləri steroidlə müalicə olunur. Steroid özü ilə aqressiyaya səbəb olur.

**- Kovidfobiya nələrə səbəb olur?**

- İnsanlar bu zaman yoluxmadan qorxduqları üçün təmasları dayandırırlar. Onlar özləri də bunun gülməli olduğunu anlayırlar, amma nəsə edə bilmirlər. Bu cür insanlar fobiyalarından yaxa qurtara bilmədikləri üçün hətta gülməli görünməyə də hazır olurlar. Onlar hətta ən yaxınları ilə təmasda da narahatlıq keçirdiklərinə görə mümkün qədər tək qalmağa üstünlük verirlər. Putinin həmkarları ilə uzun masa arxasında söhbət etməsi də onun psixoloji pozuntusundan xəbər verir. Belə adamlar bəzən günlərlə tək qalırlar. Ünsiyyətsiz qalmaq isə insana çox ciddi mənfi təsir edir.

***Azad İsazadə: "Gələcəkdə "Z" bütün dünyada elə rus faşizminin simvolu kimi qəbul ediləcək"***



**- Müharibə bir az da davam etsə, Kreml hakimiyyəti aqressivləşib nüvə silahından istifadə edə bilərmi?**

- Moskva istənilən vaxt buna əl ata bilər. Amma əvvəlcə Kreml bundan təzyiq vasitəsi kimi istifadə etməyə çalışacaq. İkinci bir tərəfdən, bəlkə də, Putin indiyədək nüvə silahından istifadə etmək istəyib. Sadəcə işi icra edənlər əmrə tabe olmayıblar. Vaxt keçdikcə nüvə silahından istifadə riski azala bilər. Hələlik isə bu təhlükə kifayət qədər ciddidir.

**- Rusiya tanklarının üzərindəki ”Z” işarəsi fərqli cür yozulur. Bəziləri bunun Zelenskiyə psixoloji təsir vasitəsi olduğunu iddia edirlər. Bir çoxları isə düşünür ki, bu, gələcək qələbəni simvollaşdırır. Sizin fikriniz necədir?**

- Bu, ilkin mərhələdə sadəcə fərqləndirici işarə kimi qəbul edilirdi. Çünki ruslar bir neçə günlük qələbəyə ümid edirdilər. Lakin müharibə uzandı. İndi həmin işarələr əhəmiyyətsizdir. Ukraynalılar da öz tanklarına ”Z” işarəsi vuraraq rusların arxasına keçə bilərlər. Odur ki, bu işarə indi daha çox təbliğat kimi qəbul edilir. Maraqlıdır ki, İkinci Dünya müharibəsində Almaniyadakı bəzi diviziyalar da bu simvoldan istifadə edirdi. Rusların indi bu simvolu tanklarına vurmaları gülməlidir. Yəqin ki, gələcəkdə ”Z” bütün dünyada elə rus faşizminin simvolu kimi qəbul ediləcək.

**- Müdafiə naziri Sergey Şoyqu ilə bağlı da müxtəlif iddialar səslənir. Fikrinizcə, hərbçilərlə hakimiyyət arasında müəyyən uçurum varmı, ya da bu, yaxın gələcək üçün gözlənilirmi?**

- Bu barədə müzakirələr qismən azalıb. Çünki nazir yenidən görünməyə başlayıb. Şoyqunun vəzifədə olduğu müddət ərzindəki fəaliyyətinin ”bəhrəsi” müharibədə göründü. Məlum oldu ki, Rusiya silahlı qüvvələrində müasir silahlar yoxdur. Bəzi texnikaların, ümumiyyətlə, döyüşə yararsız olduğu üzə çıxdı. Nəticədə Ukraynadakı rus ordusu tam təminatsız idi. Bu isə Şoyquya qarşı müxtəlif rəylər yaradırdı. Yəqin ki, indi Kremldə hazırkı durumun günahkarları axtarılır. Rusiyanın iki böyük səhvi var. Bunlardan birincisi, kəşfiyyat xidmətinin zəif fəaliyyəti, ikincisi isə ordunun hazırlığının aşağı səviyyədə olmasıdır. İndi Kremldə, çox güman, FSB ilə ordu rəhbərliyi arasında mübarizə gedir: onlardan biri digərini ittiham edir. Tərəflər arasındakı qarşıdurmanın tədricən daha da güclənməsi mümkündür.

**- Putin mətbuatda, sosial mediada ukraynalı həmkarına nisbətən daha az görünür. Zelenskinin, demək olar, hər gün, Putinin isə təxminən həftədə bir dəfə xalqa müraciət etməsi psixoloji cəhətdən necə qiymətləndirilməlidir?**

- Zelenski çox pozitiv obraz yaradıb. O, daim cəmiyyət ilə əlaqədədir. Ümumiyyətlə, Ukrayna lideri olduqca kreativ davranır. Dövlət başçısının ayrı-ayrı nüfuzlu KİV-ə müsahibələri, beynəlxalq tribunalardan çıxışı bunu deməyə əsas verir. Ukrayna Prezidentini daim, hər yerdə alqışlayırlar. Bu isə onun uğurlu piar kampaniyası apardığını göstərir. İndiyədək Zelenskini aktyor, Putini sərkərdə kimi tanıyırdılar. Lakin məlum oldu ki, bunun əksi imiş. Ukrayna lideri qorxmur, Ali Baş Komandan kimi davranır, Rusiya prezidenti isə bunkerdə gizlənir və ara-sıra formal çıxışlar edir.

Yeri gəlmişkən, deyim ki, Zelenski açıq danışır. Putinin müraciətləri isə bürokratik səviyyə daşıyır. Bu, əlbəttə, rəsmi Kiyevin qələbəyə daha yaxın, daha ümidli olması kimi başa düşülməlidir.

**Kənan Novruzov**

---

**Ukrayna Prezidenti Vladimir Zelenski İrlandiyadan Rusiyaya qarşı daha sərt sanksiyalar tətbiq etmək üçün Avropa İttifaqına təzyiq göstərməyi xahiş edib.**





# Rusiyanın bütün bankları dayandırılmalıdır

## Ukrayna daha böyük sanksiyaların tətbiqini gözləyir

”Şərq” ”CNN”ə istinadən xəbər verir ki, Dublin parlamentinə virtual müraciətində Zelenski Rusiya qoşunlarının etdiklərindən sonra hansısa qərarsızlığa dözə bilməz: ”Biz hələ də bəzi Avropa şirkətlərini Rusiya bazarını tərk etməyə inandırmalı olacağıq. Xarici siyasətçilərə izah etməliyik ki, Kreml banklarının qlobal maliyyə sistemi ilə istənilən əlaqələrini kəsməliyik. Qərbə başa salmalıyıq ki, rus nefti Moskva hərbi maşınını yeni maliyyə mənbələri ilə qidalandıra bilməz”.

Çərşənbə axşamı Avropa Komissiyası Rusiya iqtisadiyyatını daha da dərinləşdirmək məqsədi daşıyan beşinci sanksiyalar paketini təklif edib.

Təklif olunan tədbirlərə Rusiyadan ildə 4 milyard avro (4,3 milyard dollar) dəyərində kömür idxalına qadağa daxildir.

Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba çərşənbə günü ”Twitter”də bildirib ki, daha çox iş görülməlidir:

”Aİ-nin 5-ci sanksiya paketinin gücləndirilməsini yüksək qiymətləndirirəm. Lakin Putini dayandırmaq üçün qaz-neft embarqosu və bütün banklarının dayandırılması lazımdır. Çətin dövrlər çətin qərarlar tələb edir”.

Qeyd edək ki, İrlandiyanın Xarici işlər naziri Simon Coveney açıqlama verib. O bildirib ki, Rusiyanın dörd yüksək rütbəli diplomatik zabitini beynəlxalq davranış standartlarına uyğun gəlmədiklərinə görə vəzifədən kənarlaşdırıb.

Şimal qonşumuzun İrlandiyadakı səfirliyi bu addımı pisləyərək, bunu ”özbaşınalıq” və ”əsassız” adlandırıb.

Kremlin İrlandiyadakı səfirliyi özünün tvitter hesabında bildirib ki, qovulmalar və Aİnin qoyduğu sanksiyalarda iştirak Rusiya-İrlandiya münasibətlərini daha da pisləşdirir.

**Cəmilə**

---

# Pekin müharibənin uzanmasından narahatdır

## Çin üçün Rusiya-Ukrayna müharibəsində qızıl ortanı tapmaq çətindir



**Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba çinli həmkarı Vang Yi ilə telefon danışığında Rusiyanın Ukrayna torpaqlarını işğalı və Buça qətliamı barədə müfəssəl məlumat verib.**

Vang Yi Kulebaya bildirib ki, müharibənin davamı beynəlxalq ticarətə və qida təhlükəsizliyinə zərbə vurur. Müharibəyə qədər Çinin Ukraynadan qida məhsullarının idxalıyla bağlı böyük planları var idi. Hazırda bunları reallaşdırmaq mümkün deyil. Nazirlərin telefon danışığı ilə bağlı Çin Xarici İşlər Nazirliyi də açıqlama yayımlayıb. Açıqlamada müharibənin dayandırılmasının Avropa təhlükəsizliyi üçün vacib olduğu vurğulanıb: ”Müharibə bütün hallarda bitəcək. Əsas məsələ bundan sonra bölgədə təhlükəsizliyin təminatıdır”.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ”Şərq”ə bildirib ki, Moskvanın strateji tərəfdaşı olan Pekin Ukraynada müharibənin uzanmasından narahatlığını açıq formada ortaya qoyub.** Analitik deyib ki, Ukrayna və Çin xarici işlər nazirləri müharibə başlayandan bəri ikinci dəfədir telefonla danışırlar: ”Kiyevin Pekindən iki gözləntisi var. Birincisi, Kiyev istəyir ki, Pekin Rusiyanın işğalçı müharibəsindən məsafə saxlasın, bunu dəstəkləməsin. İkincisi, Pekin müharibənin dayandırılması üçün Kremlə təsir etsin. Pekin ehtiyatlıdır. Çin nə Kremlin işğalçı müharibəsini pisləyir, nə də müharibəyə haqq qazandırır. Ancaq Pekin üçün Rusiya-Ukrayna müharibəsində qızıl ortanı tapmaq çətindir. Çünki bir tərəfdə işğalçı, digər tərəfdə işğala məruz qalan dövlət dayanıb. Bu ikisi arasında bərabərlik işarəsi qoymaq problematikdir”.

**İsmayıl**

---





# "Şuşa ili"ni daha çox azyaşlı uşaqlar arasında təbliğ etməliyik

## Kamran Əsədov: “Onların tarixi torpaqlarımız haqqında daha geniş informasiyası olmalıdır”

**Paytaxtdakı təhsil müəssisələrində reallaşdırılacaq tədbirlərə dair Bakı şəhəri üzrə Təhsil İdarəsinin əmri imzalanıb. Əmrə əsasən, təhsil müəssisələrində ”Şuşa ili” ilə bağlı silsilə tədbirlərin, ”Zəfər” olimpiadasının keçirilməsi nəzərdə tutulur. Həmçinin məktəblilər arasında ”Əziz Şuşa, sən azadsan!”, ”Şuşa Qarabağın döyünən ürəyi” mövzularında inşa yazı müsabiqəsinin təşkili diqqətdə saxlanılır.**

Eyni zamanda YUNESCO Assosiativ Məktəblər Şəbəkəsinə üzv olan təhsil müəssisələrinin, ”Qardaşlaşmış məktəblər” təşəbbüsünə qoşulmuş yerli və xarici ölkə məktəblərinin ”Şuşa ili” ilə bağlı birgə tədbirlərinin keçirilməsi planlaşdırılır. Bundan başqa, Şuşada yaşamış görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığına həsr olunmuş tədbirlər təşkil olunacaq, yuxarı sinif şagirdləri arasında Şuşanın 270 illik yubileyinə həsr olunmuş ”Ən yaxşı elektron təqdimat” müsabiqəsi keçiriləcək. Məktəb kollektivlərinin, ”Şuşada bir gün” Respublika fənn olimpiadaları qaliblərinin, ümumi təhsil

***"Bakı məktəbləri ilə yanaşı, bölgələrdə də yarışların, müsabiqələrin keçirilməsi məqbuldur"***

müəssisələri şagirdlərinin Şuşa şəhərinə səfərlərinin, orada yay məktəblərinin, könüllülər düşərgələrinin təşkili nəzərdə tutulur.

**Təhsil üzrə ekspert Kamran Əsədov ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanın zəfərlə başa çatan Vətən müharibəsi bütün sahələrə öz müsbət təsirini göstərib:**

”Hazırda Azərbaycanın ali və orta ixtisas, eyni zamanda orta məktəblərində dövlətimizin zəfərlə başa çatan 44 günlük müharibəsinin müəyyən hissələri ilə bağlı xüsusi tədbirlər həyata keçirilir. Bu gün Bakıda 320, ölkə üzrə 4432 orta ümumtəhsil məktəbi var. Bu ilin Azərbaycanda ”Şuşa ili” seçilməsinin əsas səbəblərindən biri Şuşanın Azərbaycan tarixində, dövlətçiliyində tutduğu yer, roldur. Bu, vacib bir məqamdır. İndiki məqamda mədəniyyət paytaxtımız bizim üçün bütün məsələlərdə daha həssasdır. Ona görə də ”Şuşa ili” ilə bağlı keçirilən olimpiadalar, daha fərqli formatda tədbirlər, müsabiqələr tarixi torpaqlarımız barədə şagirdlərimizin daha çox bilik əldə etməsinə, bacarıqlarının formalaşmasına vəsilə olacaq”.

*K.Əsədov hesab edir ki, belə tədbirlərin təşkilini daha çox azyaşlı uşaqlar arasında aparmalıyıq:*

”Onların tarixi torpaqlarımız haqqında daha geniş informasiyası olmalıdır. Təkcə ədəbiyyat fənnindən yox, kimya, fizika, coğrafiya sahələrinə də yer verilməlidir. Həmin ərazilərin bioloji quruluşu, coğrafi mövqeyi ilə bağlı yarışlar, olimpiadalar keçirilərsə, daha yaxşı olar. Bakı məktəbləri ilə yanaşı, bölgələrdə də yarışların, müsabiqələrin keçirilməsi məqbuldur”.

**Sücayət Mehti**

---

# Ermənistan Rusiyaya yarınmaqla bütün simasını itirib

**Asim Mollazadə:** ”Rəsmi İrəvana qarşı hər hansı sanksiyalar və cəzalar tətbiq edilmir. Bu, məhz erməni lobbiçilərinin səyləri nəticəsindədir”

**Tural İsmayılov:** ”Zənnimcə, rəsmi Kiyev bu xəyanətkarlığa qarşı kifayət qədər tutarlı cavablar verəcək”



**Ermənistanın Ukraynanın işğal edilməsi üçün Rusiyaya dəstək məqsədilə ”Su-30” qırıcı təyyarələri göndərməsi ilə bağlı Baş nazir Nikol Paşinyan komandası susqun qalıb. Lakin hökumətə yaxın teleqram kanalları bunun əksini göstərir.**

Bu barədə Türkiyənin ”Haber Global” telekanalı bəhs edib.

N.Paşinyan qırıcı təyyarələrinin ölkəni tərk etməməsi ab-havasını yaratmaq məqsədilə təcili surətdə Suriyadan ”Su-30” təyyarələri gətirib və NATO nümayəndələrinə nümayiş etdirib.

Buna görə də, sosial şəbəkənin erməni seqmentində tənqid olunub.

Bundan başqa, ”Haber Global”ın 4 qırıcı təyyarəsinin pilotlarla birgə rəsmi Moskvaya göndərilməsi xəbəri Ermənistan kəşfiyyatının zəifliyini ortaya çıxarıb. Gizli məlumatın mətbuata sızması N.Paşinyanı Rusiyaya qarşı çətin vəziyyətə salıb, iki ölkə arasında diplomatik gərginlik alovlanmağa başlayıb.

Xatırladaq ki, Ermənistanın Rusiyaya döyüş təyyarəsi və pilotlarla dəstək verməsi xəbərini ilk dəfə ”Haber Global” televiziya kanalı ictimailəşdirib. N.Paşinyan əvvəlcə bu xəbəri təkzib etsə də, daha sonra ”Haber Global”ın yayımladığı peyk görüntüləri onu səssiz qalmağa vadar edib. Beləliklə, rəsmi İrəvan bu addımı ilə işğala dəstək verib.

Qeyd edək ki, Azərbaycan 30 il müddətində daimi Ermənistanın çirkin niyyətlərinin şahidi olub. Lakin Qərb həmişə susub. İndi də Rusiya işğalına dəstək verən Ermənistana qarşı heç bir tədbir görmürlər.

**Ermənistanın ikiüzlü siyasətindən ”Şərq”ə danışan Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə bildirib ki, bunun səbəbi bir sıra Qərb ölkələrində və ABŞ-da siyasətə təsir edə bilən diasporun lobbiçilik fəaliyyətidir:**

”Müəyyən qədər siyasi korrupsiyaya uğramış Avropa və Amerika siyasətçiləri Ermənistanın istənilən cinayət əməllərinə göz yumurlar. Biz bunu uzun illərdir, müşahidə edirik. Ermənistanın istənilən hərəkəti diqqətdən yayındırılır. Rəsmi İrəvana qarşı hər hansı sanksiyalar və cəzalar tətbiq edilmir. Bu məhz erməni lobbiçilərinin səyləri nəticəsindədir”.

**Politoloq Tural İsmayılov da qırıcı təyyarələrin verilməsini Ermənistanın Rusiyaya yarınması kimi qiymətləndirib:**

”Ermənistanın Qərbə qarşı ikiüzlü siyasət yürütməyi, Avropa siyasi institutlarının nəzərindədir. Bundan əvvəl N.Paşinyanın sorğusunda da Qərbin imperialist mərkəzləri tərəfindən yetişdirilən siyasətçi olduğu Rusiyaya məlum idi. Hətta bu, Kreml və İrəvan arasında siyasi çatlar yaradıb. Paşinyanın rəsmi Moskvaya qırıcıları verməyi ona yarınmaq cəhdidir. Ancaq nəticəsi olmayacaq. Çünki rus siyasi və hərbi elitası onun nə qədər ikiüzlü və qeyri-səmimi biri olduğunu dərk edir. Sadəcə, rəsmi İrəvan Rusiya ilə korlanan münasibətlərdə özünə bu tip qeyri-humanist addımlarla xal qazanmağa çalışır. Bu isə Paşinyan hökuməti ilə Qərb əlaqələrinin zədələnməsinə səbəb ola bilər”.

Politoloq Ermənistan-Ukrayna münasibətlərinə toxunub:

”Zənnimcə, rəsmi Kiyev bu xəyanətkarlığa qarşı kifayət qədər tutarlı cavablar verəcək. Daha sonrasında erməni lobbiçiləri İrəvanın Avropada korlanan imicini bərpa etmək üçün tədbirlər görməyə çalışacaq. Amma erməni hakimiyyəti öz simasını hər iki tərəfdə çoxdan itiriblər”.

**Cəmilə Əzim**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**

# Bələdiyyələrin birləşməsi yaxın vaxtlarda həllini tapa bilər

## Təkliflər nəzərə alınsa özünüidarəetmə qurumlarının fəaliyyətində ciddi dönüş olacaq



**Demokratik ənənələrə sadiq qalan Azərbaycan dövləti yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə də xüsusi diqqət ayırır. Rəsmi təsisatlarla yanaşı, vətəndaş cəmiyyəti institutları, qeyri-hökumət təşkilatlarının ölkədə sərbəst fəaliyyəti təmin edilir. Bələdiyyə orqanları da bunlardan biridir.**

Hazırda ölkə ərazisində 1600-dən artıq bələdiyyə orqanı fəaliyyət göstərir. Bu fakt Milli Məclisin iclasında səsləndirilib, bələdiyyələrin fəaliyyəti müzakirə olunub. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim edən ədliyyə nazirinin müavini Vilayət Zahirov qeyd edib ki, post-konflikt dövründə həyata keçirilən ardıcıl tədbirlərdə Azərbaycan bələdiyyələri də yaxından iştirak ediblər, Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına diqqət və qayğı göstərilməsi, onların problemlərinin həlli istiqamətində məqsədyönlü işlər görülüb. Bələdiyyələr tərəfindən şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə xatirə guşələri yaradılıb, bulaqlar istifadəyə verilib, şəhidlərin anım mərasimlərinin təşkilində fəal iştirak edilib. Eyni zamanda şəhid ailələrinin və müharibə iştirakçılarının maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində müxtəlif yardımlar olunub, onların yaşadıqları məhəllələr, küçələr abadlaşdırılıb, evləri təmir olunub. Vilayət Zahirov deyib ki, 2021-ci ildə respublikamızda aparılan hərtərəfli islahatlar çərçivəsində bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə işlər görülüb, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə dövlət dəstəyi göstərilib. Ədliyyə Nazirliyinin təklifləri və ya məhkəmə iddiaları əsasında bütövlükdə 9.096 ha torpaq sahəsinin, o cümlədən 6.848 ha örüş sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilib. İl ərzində uçotdan kənarda qalan vergitutma obyektlərinin qeydiyyata alınması nəticəsində bələdiyyə büdcələrinə yalnız torpaq və əmlak vergisindən 2020-ci illə müqayisədə təxminən 3,5 milyon manat çox vəsait daxil olub. O cümlədən, Bakı şəhərində fəaliyyət göstərən bələdiyyələr üzrə bu artım təxminən 2,5 milyon manat təşkil edib. Həmçinin torpaq icarə haqlarından əvvəlki illər üzrə yaranmış debitor borcların təqribən 2 milyon manatdan çox hissəsinin yerli büdcələrə ödənilməsi təmin edilib. Ümumilikdə, 2021-ci il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə, yerli özünüidarəetmə orqanı kimi nüfuzunun artırılmasına, o cümlədən bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına yönəlib.

**Müzakirə olunan məsələlərə münasibət bildirən millət vəkili Fatma Yıldırım "Şərq"ə açıqlamasında hər bir idarəetmə orqanının qanunvericiliyin tələbləri çərçivəsində fəaliyyət göstərməli olduğunu bildirdi:**

- Cənab Prezident İlham Əliyevin apardığı siyasətə uyğun olaraq Azərbaycanda bələdiyyələrin normal fəaliyyəti və inkişafı üçün hüquqi, maliyyə və iqtisadi təminatlar yaradılıb, dövlət həmişə yerli özünüidarəetmə orqanlarına dəstək olub və hazırda da bu proses davam etməkdədir. Milli Məclisə təqdim olunan illik məruzədən də göründüyü kimi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı müəyyən tədbirlər həyata keçirilib, qanunvericiliyin düzgün tətbiq olunması istiqamətində xeyli təkliflər verilib. Məhz görülmüş işlərə görə mən də illik məruzə ilə bağlı qərar layihəsinin lehinə səs verəcəyəm. Lakin qeyd etmək istərdim ki, bu gün bələdiyyələrin rastlaşdıqları cox ciddi problemlər var. Və istərdim ki, bu çətinliklər tezliklə öz həllini tapsın. Millət vəkili kimi mütəmadi olaraq mənə seçicilərimi narahat edən müxtəlif problemlərlə bağlı müraciətlər daxil olur və həmin müraciətlər aidiyyəti olaraq rayonda fəaliyyət göstərən bələdiyyələrə ünvanlanır. Təəssüflər olsun ki, bələdiyyələr tərəfindən vətəndaşların istəkləri heç də həmişə yerinə yetirilmir. Hər hansı məsələ ilə kənd bələdiyyələrinə müraciət etdikdə vəsaitin olmadığından və bu səbəbdən problemlərin həllinə köməklik göstərə bilməyəcəkləri bildirilir. Rayon icra hakimiyyətinə kənd camaatının müəyyən problemini bildirdikdə isə əsasən "bu, bələdiyələrin işidir, onlarin səlahiyətindədir", cavabını alırıq. Nəticə etibarilə, qaldırılan məsələlər açıq qalaraq vətəndaşlarda narazılıq yaradır.

**F.Yıldırım bələdiyyələrin əsas problemlərindən birinin maliyyə ilə bağlı olduğunu deyib:**

- Bir çox kənd bələdiyyələrinin dövlət büdcəsindən verilən 1700 və ya 1800 manat həcmində dotasiyadan başqa gəlirləri olmur. Rayonda fəaliyyət göstərən bələdiyyələrin mütləq əksəriyyəti nəinki yerli problemləri həll edə, hətta orada çalışan bir-iki işçinin əmək haqlarını belə ödəyə bilmirlər. Hesab edirəm ki, bu problemlərin əsaslı həlli üçün geniş müzakirələrin aparılması və ciddi tədbirlərin görülməsi vacibdir. Təklif edirəm bu məqsədlə, Milli Məclisin Regional məsələlər Komitəsi və Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzi birgə komissiyası yaradılsın və komissiyanın işinə aidiyyəti dövlət qurumları cəlb olunsun. Fikrimcə, qeyd olunan problemlərin həlli yollarından biri kiçik bələdiyyələrin birləşdirilməsi yolu ilə onların kadr və maliyyə potensialının gücləndirilməsi və beləliklə də birləşmə nəticəsində yaranan nisbətən böyük bələdiyyənin normal fəaliyyətinin təmin edilməsi ola bilər. Beynəlxalq təcrübədə də qeyd etdiyim metodlardan geniş istifadə olunur. Qardaş Türkiyə Respublikasında Bələdiyyə Qanununa əsasən əhalisi 5000 nəfərdən az olan ərazilərdə bələdiyyələrin yaradılması qadağan edilir. Əksər Avropa dövlətlərində əhalinin sayına aşağı məhdudlaşdırıcı say tətbiq etməklə şəhər və rayonlarda əsas inzibati vahidliklərdə az sayda güclü bələdiyyələr yaradılır və onların fəaliyyətləri əsasən qənaətbəxşdir. Zənnimcə, yaxın gələcəkdə Azərbaycanda da minimum əhali sayı tətbiq etmək və ya inzibati ərazilər üzrə islahatlarla bələdiyyələrin birləşməsi məsələsini müzakirə etmək olar. İnanıram ki, müzakirələrdə söylənilən təkliflər yaxın vaxtlarda öz həllini tapacaq və yerli özünüidarəetmə qurumlarının fəaliyyətində ciddi dönüş olacaqdır.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Narkotik asılısının silah daşıması təhlükəlidir

## Hərbçilərin icbari narkoloji müayinədən keçirilməsi təqdir olunmalıdır



**Azərbaycanda hərbi qulluqçular ildə bir dəfədən az olmayaraq icbari narkoloji müayinədən keçiriləcək.**

Bu dəyişiklikləri özündə ehtiva edən müvafiq təkliflər parlamentin ötən iclasında I oxunuşda müzakirəyə çıxarılıb. Dəyişikliklər narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə hazırlanıb.

"Narkoloji xidmət və nəzarət haqqında" qanuna təklif edilən yeni - 24.4-cü maddədə müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslərin, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların və kadr zabit heyətinə könüllü daxil olanların icbari narkoloji müayinədən keçməsi məsələlərinin hüquqi əsasları müəyyən olunub.

Bu şəxslərin icbari narkoloji müayinədən keçməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək. Qanun qəbul ediləcəyi təqdirdə 2022-ci il iyulun 1-dən qüvvəyə minəcək.

**Dəyişiklikləri "Şərq"ə şərh edən hərbi ekspert Azad İsazadə Azərbaycanda belə bir təcrübənin olduğunu deyib. Onun sözlərinə görə, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları ildə bir dəfə narkoloji müayinədən keçirilir.** Müayinə zamanı da bir neçə nəfərin sidiyində narkotik maddə elementləri çıxdığına görə vəzifədən azad edilir. İctimai nəqliyyatın sürücülərinin də il ərzində narkotik maddə istifadəçisi olub-olmadığını müəyyənləşdirmək üçün test edirlər.

Sözügedən dəyişiklikləri müsbət dəyərləndirən ekspert bu ideyanın Azərbaycan Ordusu və ümumilikdə ölkəmiz haqqında mənfi imic yaradacağını iddia edən şəxslərlə razılaşmadığını deyib: "Bu cür müayinələrin aparılması baş verə biləcək hansısa təhlükənin də qarşısının alınmasında mühüm rol oynaya bilər. Narkotik maddə aludəçisinin silah daşıması qəbuledilməzdir".

Qərb ölkələrində hərbçilərin icbari psixoloji müayinədən keçirildiyini xatırladan. A.İsazadə deyib ki, psixoloji durumu yerində olmayan insanın orduda xidmət etməsi də arzuolunan deyil. "Səhv etmirəmsə, ABŞ-da psixoloji vəziyyəti yerinə olmayan bir zabit affekt vəziyyətində zabit yoldaşlarını güllələmişdi".

**Şəymən**

# Təhlükəli qidanın qarşısında yalnız AQTA mövcuddur

## Artıq bürokratik mexanizm problemi həll edə bilmir

**Millət vəkili Rüfət Quliyev parlamentin son iclasında vaxtı keçmiş qida məhsulları və dərman preparatlarından danışıb. Deputat qeyd edib ki, ən vacib məsələ iqtisadi artım, inflyasiya ilə mübarizə və sosial problemlərin tezliklə həllinə qovuşmasıdır:**

"Ticarət şəbəkələrində kifayət qədər vaxtı keçmiş qida məhsulları satılır. Aidiyyəti qurum bu prosesin üzərində işləyir. Amma elə məsələlər var, dövlət bunu nəzarətə götürməlidir. Sözügedən məsələyə dövlətin nəzarəti yüksək olmalıdır. Digər tərəfdən, bizdə satışda vaxtı keçmiş dərmanlar və onların tərkibləri barədə ciddi nəzarətə ehtiyac var. Dərmanların həm qiymət, həm də keyfiyyətinə nəzarət artırılmalıdır".



***"Hökumət sahibkarlara toxunmamaq siyasəti yürüdür. Bu isə istehlakçıların "başında çatlayır"***

**Müddəti keçmiş məhsulların satışı ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deputatlara səslənib:**

"Hökumətin səhv siyasəti dəyişdirilməlidir. Bu gün bazarda təhlükəli mal satılırsa, onun dərhal önlənməsi üçün heç bir mexanizm yoxdur. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əli-qolu bağlıdır. Hökumətin istehlakçı siyasəti yox dərəcəsindədir. Əgər zəhərli məhsul satılarsa, heç bir dövlət orqanı müdaxilə etmək ixtiyarında deyil. Uzun və mənasız prosedurdur. Qidanın təhlükə riskini aradan qaldıran yalnız AQTA mövcuddur. Onun da problemin qarşısını almaq gücü yoxdur".

**Ekspertin sözlərinə görə, bu, həddindən artıq bürokratik mexanizmdir:**

"Həmişə tənqid hədəfinə çevirdiyim qurum 1 həftə öncədən yoxlanılan tərəfə deyilməklə, ən tez 15 gün müddətində gerçəkləşdirilə bilir. Hökumət sahibkarlara toxunmamaq siyasəti yürüdür. Bu isə istehlakçıların "başında çatlayır". Hökumətə, parlamentə üzümü tutub söyləyirəm: dövləti də, ordunu da, məmuru da saxlayan biz istehlakçılarıq. Həyatımızı təhlükəyə atmasınlar.

Qida məsələlərinin həllində operativ müdafiə mexanizmləri yaradılsın. Həmin mexanizmlər uzun və bürokratik prosedurlardan uzaq qalsın.

İstehlakçıları da diqqətli davranmağa çağırıram. Belə hallar olduğu təqdirdə dövlət orqanlarını məlumatlandırsınlar.

Qəribə bir durumdur, dövlət orqanlarının əl-qolu bağlıdır. Hazırlanan mexanizmi xaricilər tərtib edib. İstehlakçı hüquqlarına qəsd mexanizmi hökm sürür.

Sahibkar rüşvətdən kənar dayansın. Verilən rüşvətlər istehlakçılardan çıxır. Sahibkar işini şəffas tutsun, yoxlayanda problem tapılmasın. Təəssüf, AQTA belə siyasətin tərəfdarıdır. Bununla da biz istehlakçıların həyatı təhlükədədir.

Çox çəkməz, Azərbaycanda istehlakçı narazılığı reallaşar".

**Aygün Tahir**

# Ölkədə bircə dənə də olsun normal dini telekanal yoxdur

## Xaricə işləyən axundlar indi də yutubda, sosial şəbəkələrdə at oynadırlar

**12 ay içində mübarək Ramazan ayından daha əzəmətli ay yoxdur. Çünki Allah bu ayda bəşəriyyətə özünün ən böyük hədiyyəsini, "Qurani-Kərimi" bəxş edib. "Min aydan daha xeyirli" Qədr gecəsi də bu ayın içərisindədir. Ona görə də Ramazanı məcazi anlamda "on bir ayın sultanı" adlandırırlar.**





***"Onlar istər orucluqda, istərsə də digər zamanlarda ənənəvi islamın, xalqımızın qavradığı inancın əksinə təbliğat aparırlar"***

Ramazan təlim və tərbiyə, paklıq və təmizlənmə, özünüislah ayıdır. Bu ayda edilən ibadətlərlə, xeyir əməllərlə Allaha yaxınlaşma mərhələlərini daha sürətlə keçmək mümkündür. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) fətvasına əsasən, mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində köməklik göstərmək Allah nəzərində bəyənilən əməllərdəndir. Həmçinin, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm və ibadətlə məşğul olmaq bu ayda ən böyük savab əməllərdən sayılır.

**Mübarək ayın mənəvi faydaları ilə bağlı "Şərq"ə danışan ilahiyyatçı Tural İrfan deyib ki, orucluq ilahi kitabımız olan "Qurani-Kərim"də müsəlmanlara fərz, yəni vacib buyurulan əmrlərdəndir. Ekspertin sözlərinə görə, oruc nəfsi, ruhu, cismi və malı təmizləyir:** "Oruc tutanda insan mənən saflaşır, Tanrıya yaxınlaşır. Acların hansı hissi keçirdiyini dərk edir və sonda fitrə zəkatı verir. Oruc başqa dinlərdə də var. Oruc tutan adam şəriətə görə sübh alatorandan gün batana qədər yeməkdən, içməkdən, cinsi əlaqədən çəkinməlidir. Ramazan ayı mübarək ay hesab olunduğuna görə bu ayda daha çox savab işlər görülməli, kasıblara əl tutulmalıdır. Təmtəraqlı kabab süfrələri təşkil edib sosial şəbəkələrdə iftar süfrəsi adı altında paylaşmaq, iftar süfrələrinə yalnız varlı, vəzifəli adamları yığıb özünü reklam etmək dində haram və günah sayılır. İnsan təvazökar və sadə olmalıdır. Bu, Ramazan ayında daha çox əməl olunmalı xüsusdur. Təəssüf ki, ölkəmizdə din məsələsini Qafqaz Müsəlmanları İdarəsi demək olar ki, məhv edib. Yəni din işlərini nə özü doğru görə bilir, nə də Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə imkan verir. Əksər illərdə Qafqaz Müsəlmanları İdarəsi İranın və Rusiyanın siyasi təsir dairəsində olduğu üçün hətta Ramazan ayının başlanğıcını da İrana görə təyin edirdi. İranda da din siyasiləşdiyinə görə onlar bu cür əlamətdar günləri və bayramları hər zaman dinin tələblərinə görə yox, dövlət maraqları naminə təyin edir, müəyyən edirlər. Ümumislam və türk dünyasının əksinə olaraq onlarla eyni günə düşməmək üçün həmişə nifaq salırlar. Təəssüf ki, Qafqaz Müsəlmanları İdarəsi də onları təqlid edir. Amma bu il artıq bu idarənin səlahiyyətlərinin məhdudlaşdırılması çərçivəsində Ramazanın başlanğıcı həm İslam ümmətinin, həm də qardaş Türkiyənin elan etdiyi vaxtla eynilik təşkil etdi".

*T.İrfan vurğulayıb ki, ölkədə bircə dənə də olsa normal dini telekanal, əhatəli mətbu qurum yoxdur:* "Ona görə də insanlar inanc ehtiyaclarını qarşılamaq üçün xarici televiziyalara baxırlar. Bu da müəyyən mənada tam ehtiyacı ödəmir. Bu gün açıq-aşkar din pərdəsi altında yerləşdirilmiş axundlar yutubdan, sosial şəbəkədən istər orucluqda, istərsə də digər zamanlarda ənənəvi islamın, xalqımızın qavradığı inancın əksinə təbliğat aparırlar. Çünki vaxtında tədbir görülmədi və onlar kök atdı. Artıq həmin şəxslərin kifayət qədər auditoriyası var ki, onlar xaricdə əyləşən dini liderlərə xüms, zəkat adı altında maliyyə də göndərirlər. Əsl ilahiyyatçılara, milli təfəkkürdə olan dinşünaslara, dövləti sevən islamşünaslara Qafqaz Müsəlmanları İdarəsi imkan vermir. Sorğu keçirilsə, Azərbaycanda fəaliyyət göstərən məscidlərin 70 faizindən yuxarı axundları ya İranda təhsil almış, ya da İranda oturan siyasi mollaya təqlid edən şəxslərdir. Regionçuluq, məzhəbçilik ölkəmizin din sferasını darmadağın edib. Ona görə də fərqli və bir-birinə zidd fikirlər artır. Normal şəkildə insanlar maarifləndirilmir. Müstəqil ilahiyyatçıların da imkanı yoxdur ki, kitab çap etsin, telekanal açsın. Təqvim vərəqini internetdə düzəldib, sosial şəbəkədə yaymaqla vəzifəsini bitmiş sayan Qafqaz Müsəlmanları İdarəsi təəssüf ki, xalqımızın sivil, kübar, ənənəvi islam modelini zədələdi. Xarici ölkələrin siyasiləşmiş din modelləri ilə qatışdırdı. Ona görə də bu gün boşluqlar çoxdur və o boşluqları doldurmaq üçün gərək dövlət qurumları ən azı 20 il işləsin".

**İsmayıl Qocayev**

# Ən ağır cəza verilməlidir

## Körpəsini qətlə yetirən anaya heç cür haqq qazandırmaq olmaz



**Ataların da dediyi kimi, ”Hər doğan - ana olmaz” , yaxud da ”Su meymunun boğazına çatanda balasını da tapdalayır”. Anası tərəfindən öldürülüb küçəyə atılan körpələrin sayının artması fonunda bu deyimlər uzun illərdir öz aktuallığını qoruyur.**

Deməк ki, ta qədimlərdən bu cür talehsiz hadisələr yaşanır, analar həyat verdikləri körpələrinin canına qıyırmışlar. Qeyd edək ki, növbəti cinayət Nizami rayonu Qara Qarayev prospekti 88 saylı binanın yaxınlığında qeydə alınıb. Polietilen sellofanda küçəyə atılan uşağın anası şübhəli qismində saxlanılıb və uşağını qəsdən öldürməkdə ittiham olunan A.K. barəsində həbs-qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə istintaq davam edir.

**Məsələ ilə bağlı danışan ekspertlər isə deyir ki, hər cinayətin arxasında mütləq bir müəmma var. Həmin ananın hansı şərtlərdə və situasiyada bu addımı atdığını bilmədiyini vurğulayan ”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bununla belə ananın etdiyi qəddarlığa don geyindirmək, pərdələmək fikrində olmadığını deyib.**

***"Adətən uşağı nikahdan kənar dünyaya gətirən, yaxud da təcavüzə məruz qalan qadınlar tək çıxış yolunu uşağı məhv etməkdə görür"***

Hüquq müdafiəçisinin sözlərinə görə, yenicə doğulmuş bir körpənin anası tərəfindən qətlini nəyləsə əsaslandırmaq, hansısa amili şərt kimi irəli sürmək mümkün deyil: ”İstisnasız bu çox böyük bir cinayət hadisəsidir və mən heç bir halda övladını öldürən anaya bəraət qazandırmaq fikrində deyiləm. Bütün hallarda cinayətkar ən ağır şəkildə cəzalandırılmalıdır.

Burada konkret cinayət əməli var. Heç bir amil ananın öz övladını, həm də yenicə dünyaya gələn körpəni qətlə yetirməsinə səbəb kimi göstərilə bilməz. Düzdür, istintaq aparılacaq, ananı dindirəcəklər, hadisənin hansı səbəbdən baş verdiyi araşdırılacaq və ana müəyyən müddətə azadlıqdan məhrum ediləcək. Yəni hadisənin konkret səbəbləri və qətlin təfərrüatlarını araşdırmaq istintaq orqanlarının işidir.

Əsas ananı bu vəziyyətə gətirib çıxaran əsl səbəblərin üzə çıxmasıdır. Bəlkə də yaşadığı ailə, mühit ananı bu cinayəti törətməyə vadar edib. Adətən uşağı nikahdan kənar dünyaya gətirən, yaxud da təcavüzə məruz qalan qadınlar tək çıxış yolunu uşağı məhv etməkdə görür. Bunun qarşısını almaq üçün də media, vətəndaş cəmiyyətləri insanları məlumatandırmalıdır. Yaxşı olar ki, televiziyalarda bu barədə videoçarxlar hazırlansın. Qadınlarımız, gənc qızlarımız bilsin ki, gələcəkdə başlarına hansısa bədbəxt hadisə gələndə onlar hara müraciət etməli, övladını kimə əmanət etməlidir. Nikahdankənar övlad dünyaya gətirən qadınların əksəriyyəti bunu gizli saxlayır. Uşaq dünyaya gələndə isə ondan ”canını qurtarmağ”ın yollarını axtarır. Kimisi xəstəxanaya, kimisi uşaq evlərinə qoyub qaçır, kimisi də kimliyi üzə çıxar, insanlar onu qınayar deyə öldürüb atmağı daha ”rahat” hesab edir”.

**Şəymən**

## Əməkdar artist icazə verməyib

“Oğlumun sevdiyi qızla ailə qurmağını istəmədim”



**Əməkdar artist Ruhəngiz Allahverdiyeva oğlunun sevdiyi qızla ailə qurmağını istəməyib.**

”Şərq”in məlumatına görə, bu haqda ”Həmin Zaur ” proqramında müzakirə açılıb.

Verilişdə qonaq olan müğənni bildirib ki , daha sonra oğlunun həmin xanımla evlənməsinə icazə verib:

”Bəyəndiyi qız olub. Qızı mənə göstərdi, qızdır da... Allahdan böyük rəssam yoxdur. Nəyi bəyənmədiyimi deyə bilmərəm.

Amma sonradan qızın fotosunu gördüm, dünya gözəlidir. Ardınca o, başqası ilə evləndi, alınmadı deyə boşandı. Dedim, oğlumun ürəyi istəyirsə, onunla ailə qursun, razıyam. Ancaq qismət, alınmadı”. İfaçı daha sonra həyat yoldaşının xərçəngdən dünyasını dəyişdiyini söyləyib.

**Aygün Tahir**

**Elan**

Əhmədov Sənan Raquf oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mastikova Nina Alekseyevnaya 04.03.1992-ci ildə BTİ tərəfindən verilmiş № 30/2851 ”kupça” itdiyi üçün etibarsız sayılır.

Qasımov Vüqar İbrahimxəlil oğluna məxsus AD № 060472 nəqliyyat vasitəsinin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

# Bakıda lift qəzası kabusu dolaşır

## Elmar Nurəliyev: “Köhnə liftlərə nəzarət mexanizmi ürəkaçan deyil”

**Liftlə bağlı faciəvi xəbərlərlə ən azı ayda bir dəfə qarşılaşırıq. Əksər yerdə müasir standartlara uyğun liftlər istifadəyə verilsə də, hələ də sovet dövründən qalma binalarda köhnə liftlərə rast gəlinir. Bu qurğular gah işləmir, gah xarab olur, gah da qəza nəticəsində hər il bir neçə insanın həyatına son qoyur. Sakinlərin lift dərdinə birdəfəlik əncam çəkilmir.**

Qeyd edək ki, Bakının Səbail rayonunda yerləşən restoranlardan birində liftin qırılması nəticəsində iki nəfər ağır xəsarət alıb. Bildirilib ki, hər iki şəxs təcili tibbi yardım maşını ilə Kliniki Tibbi Mərkəzə gətirilib: ”1988-ci il və 1978-ci il təvəllüdlü şəxslər hadisə nəticəsində çoxsaylı travmalar alıblar. Onların fəqərə, çanaq, baldır, bazu sümüklərində sınıq və çıxıqlar var. Hər iki şəxs reanimasiyaya yerləşdirilib”.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin sözlərinə görə, liftlərin istismarı təhlükə potensiallı obyektlər siyahısındadır:**



**"Bəzi yaşayış binalarında, obyektlərdə liftlərə texniki baxışa nəzarət yoxdur"**

”Liftlərdə qəzalar normadan çox yüklənmə zamanı, elektrik sistemində nasazlıq yarandıqda, liftin quraşdırılması zamanı düzgün montaj olmadıqda, istismar müddəti bitən avadanlıq və mexanizmlərin vaxtında dəyişdirilməməyi səbəbindən qəzalar baş verir. Yəni liftlərin istismarı xüsusi icazələrlə reallaşdırılır. Stasionar şəkildə quraşdırılan, səyyar yük qaldıran mexanizmlər, eskalatorlar, kanat yolları, funklyorlar təhlükə potensiallı obyektlərdir. Yaşana biləcək qəzaların lokallaşdırılması üçün lift şaxtalarının tikintisi, quraşdırılmasında dövlət standartlarına və digər texniki normativ təhlükəsizlik qaydalarına cavab verən sertifikatlaşdırılmış materiallardan yararlanmaq lazımdır. Bəzi yaşayış binalarında, obyektlərdə liftlərə texniki baxışa nəzarət yoxdur. Bütün liftlər daimi yoxlanılmalı, istismar müddəti bitmiş mexanizm, avadanlıqlar və s. aradan qaldırılmalıdır”.

**Ekspert bildirib ki, qaydalara düzgün əməl olunmasa, qəzalar qaçılmazdır:**

”Köhnə liftlərə nəzarət mexanizmi ürəkaçan deyil. Ancaq liftin qırılıb şaxtaya düşməsi tamamilə sıradan çıxması deməkdir. Liftdə həm qaldırıcı, həm də qoruyucu troslar mövcuddur.

Biri qırılsa avtomatik o biri kabinanı saxlayır. Köhnə liftlər daha qorxuludur. Müasir liftlərdə isə sürət artan kimi əyləc sistemi işə düşür, təhlükəsiz şəkildə dayanır.

Liftin kabinasında yersiz hərəkətlər etmək, bir neçə düyməni eyni anda basmaq, tavana, qapılara toxunmaq, liftin divarına söykənmək olmaz. Uşaqları diqqətdə saxlamalıyıq. Azyaşlıların liftdən valideyn nəzarətilə istifadəsi daha məqsədəuyğundur. Bütün liftlərdə güzgü var. Liftin çağırılan mərtəbədə qapısı açıldıqda güzgüdə əksimizi görüruksə, demək, lift həmin mərtəbədədir.

Lift şaxtadaykən, qapı açıla bilər. Güzgülərin qoyulması da təhlükəsizlik məqsədi daşıyır. Obyektdə quraşdırılan liftə dair cavabdeh məsul şəxslərdir”.

**Aygün Tahir**

Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

## Oktyabrda film layihəsi var

Dilarə Əliyeva Türkiyədən aldığı təklifə görə plastik əməliyyat etdirir



**”Efir 6, 8 kiloqram kök göstərir. Həyatda bu qədər kök deyiləm. Oktyabrda Türkiyə ilə film layihəm var. Buna görə 15 kiloqram da arıqlamalıyam”.**

Bu sözləri Əməkdar artist Dilarə Əliyeva ”Günün sədası” proqramında deyib. Aktrisa Türkiyədən aldığı təklifə görə bıçaq altına yatacağını açıqlayıb:

”Buna görə də plastik əməliyyat da etdirə bilərəm. Dəyişmək lazımdır, sifətimdə olacaq. Bu layihəyə görə plastik əməliyyata dəyər. Filmə çəkiləcəm, türklərlə çalışacam. Sentyabrdan işlərimi yoluna qoymalıyam. İndi 74 kiloqramam. Olmalıyam 65 kiloqram”.

## 9 saatlıq əməliyyat keçirdi

Damlanın hazırda səhhəti yaxşıdır



**Müğənni Damla (Məsumə Əliyeva) 9 saatlıq plastik əməliyyata girib.**

”Şərq” xəbər verir ki, ifaçının prodüsseri Şamil İbrahimov Damlanın əməliyyatdan sonrakı videosunu instaqram səhifəsində paylaşıb.

O, ifaçının səhhətinin yaxşı olduğunu söyləyib:

”Dostlar, Damla xanıma görə narahat olan hər kəsə təşəkkür edirəm. Artıq narkozdan ayılıb, hər şey qaydasındadır”.

**Aygün**

# Cücərdilmiş buğda

## Sağalmaz xəstəliklərə şəfadır



**Cücərdilmiş buğda çox qiymətli qidalı məhsuldur. Bir çox ölkələrdə cücərdilmiş buğda supermarketlərdə və ya xüsusi dükanlarda ”müalicəvi qida” qeydi ilə satılır.**

Cücərdilmiş buğdanın tərkibi adi buğda ilə müqayisədə qat-qat zəngindir.

Belə ki, cücərdilmiş buğda omeqa-3 yağlı turşularla zəngindir. Saglamolun.az xəbər verir ki, bu həyati vacib maddələr insan orqanimində sintez olunmur və orqanizmə daim qida ilə daxil olunmalıdır. Omeqa-3 xolesterinin səviyyəsini şağı salır, infarkt və insultin riskini azaldır. Yalnız 1 çay qaşığı cücərdilmiş buğdada omeqa-3 yağlı turşusunun günlük dozası var.

Bundan əlavə cücərdilmiş buğda B qrupu vitaminlərlə zəngindir. Bu vitaminlər orqanizmdə bir çox proseslərdə iştirak edir - beyinin fəaliyyətini stimullaşdırır, stressi və həyacanı azaldır, depressiya zamanı kömək edir, metabolizmi sürətləndirir, qırmızı qan hüceyrələrinin sintezində iştirak edir.

Cücərdilmiş buğda E vitamininin miqdarına görə lider sayılır. Bu vitamin dərinin və reproduktiv sisteminin sağlamlığı üçün olduqca vacibdir. Ən güclü antioksidantlardan biri olan E vitamini orqanizmdə qocalma proseslərini ləngidir, bir çox xəstəliklərin (o cümlədən, ürək-damar sistemi və xərçəng xəstəliklərinin) riskini azaldır.

Qidalı liflərlə zəngin olan cücərdilmiş buğda orqanizmi şlak və toksinlərdən təmizləyir, qəbizliklə mübarizə etməyə kömək edir.

Cücərdilmiş buğda əsl minerallar anbarıdır. Burada kalsium, dəmir, maqnezium, fosfor, kalium, sink, mis, marqans, selen və bir çox digər orqanizm üçün vacib olan maddələr var.

Diyetoloqlar cücərdilmiş buğdanı sağlamlıq üçün ən faydalı məhsullardan biri kimi hesab edir və onu hər gün qidalanmağa daxil etməyi tövsiyə edirlər.

## Gəncədə 10 yaşlı uşaq xəstəxanada ölüb



**Gəncədə xəstəxanda azyaşlı ölümü baş verib.**

Hadisə dünən səhər saatlarında Gəncə Şəhər Birləşmiş Uşaq Xəstəxanasında qeydə alınıb. Ölən uşaq Qazax rayonunun Daşsalahlı kənd sakini 10 yaşlı İsrail Mehdiyevdir.

Xəstəxananın baş həkimi Hafiz Abdullayev APA-ya bildirib ki, uşaq tibb müəssisəsinə 2 gün bundan əvvəl aqonal vəziyyətdə gətirilib, həkimlərin müdaxiləsinə baxmayaraq, azyaşlı dünyasını dəyişib. Baş həkim onu da qeyd edib ki, 10 yaşlı oğlan anadangəlmə serebral iflic xəstəliyindən əziyyət çəkirmiş. Faktla bağlı araşdırma aparılır.

## Pediatr: "Uşaqlarda dırnaq yemə geniş yayılmış problemdir"



**”Uşaqlarda dırnaq yemə geniş yayılmış bir problemdir. Bu bəzən vərdiş halını alır”.**

APA xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti pediatr Əkbər Quliyev deyib. Onun sözlərinə görə, bəzən də uşaqlarda dəmir azlığı səbəbindən də uşaqlarda bu hal müşahidə edilir:

”Dırnaqların altında çox sayda viruslar olur ki, uşaqlar bu yolla asanlıqla yoluxurlar. Qandan analiz götürərək qurdu müəyyən etmək üsulu yoxdur. Bu kimi hallar yalnız nəcis analizi ilə müəyyən edilir və bu analiz bir neçə dəfə edildikdən sonra müalicəyə başlanılır” - o deyib.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 859




# İlon Mask azərbaycanlı gənci işə götürüb

## Asim Manizadə insanların Marsa ilk uçuşunun təhlükəsizliyini təmin edir

**Gənc azərbaycanlı Asim Manizadə SpaceX şirkətində işə qəbul edilib.**

Linkedindəki profilində göstərildiyi kimi, Manizadə bu ilin martından etibarən SpaceX-də kibertəhlükəsizlik mühəndisi vəzifəsində çalışaraq, insanların Marsa ilk uçuşunun təhlükəsizliyini təmin edir. Manizadə əvvəl ABŞ üçün strateji əhəmiyyət kəsb edən bacarıqlara malik miqrantlara bir neçə ay ərzində vətəndaşlıq verilməsini nəzərdə tutan MAVNİ (Military Accessions Vital to the National Interest) proqramına qoşulmuşdu.

2014-2016-cı illərdə Manizadə Good Judgment Project layihəsində "superprognozçu" olub. Bu geosiyasi proqnozlar layihəsi ABŞ kəşfiyyatının perspektiv tədqiqat fəaliyyəti (İARPA) tərəfindən maliyyələşdirilir. Layihə, yalnız açıq mənbələrdə olan məlumatdan istifadə edərək, Mərkəzi Kəşfiyyat İdarəsinin analitiklərinə üstün gəlmişdi. (report) Azərbaycanlı gənc bundan əvvəl Facebook şirkətində 7 ildən çox kibertəhlükəsizlik, elektron cinayətlərin istintaqı sahələrində çalışıb, bir ixtirasına görə ABŞ-da patent alıb. A.Manizadə 2009-2013-cü illərdə Carleton College-də təhsil alıb və onu riyaziyyat və iqtisadiyyat ixtisasları üzrə fərqlənmə ilə bitirib. O, Qlobal Maraqlar Mərkəzində (Center on Global Interests) Rusiya və Avrasiya üzrə ekspertlər şurasının və Alman Marşall Fondunun Gələcəyin Liderləri Transatlantik Şəbəkəsinin üzvüdür.

Milyarder İlon Mask SpaceX şirkətini insanları Marsa göndərmək üçün 2002-ci ildə təsis edib. O müsahibələrinin birində qeyd etmişdi ki, SpaceX yalnız amerikalıları işə qəbul edir.



# 19 yaşında komaya düşdü

## 19 il sonra oyandı, 19 il yaşadı





**ABŞ-da 19 yaşındaykən keçirdiyi avtomobil qəzası nəticəsində komaya düşən Terri Vayne Vallis, tam 19 il bu vəziyyətdə qalıb. Və 19 il sonra möcüzə baş verib. Terri komadan ayılıb. Qəribədir ki, Terri komadan ayıldıqdan sonra 19 il ömür sürüb, 57 yaşında vəfat edib.**

Bu barədə "Şərq" "Milliyet.com"a istinadən məlumat verir. Bildirilir ki, Terri dostu ilə birlikdə avtomobil qəzası keçirib. Avtomobilin dərəyə yuvarlanması nəticəsində dostu həlak olub, Terri isə ağır vəziyyətdə xəstəxanaya gətirilib və komaya düşüb. Terri yenicə evlənibmiş. O komaya düşdükdən sonra qız övladı dünyaya gəlib. 19 il ərzində həyat yoldaşı ondan ümidini üzməyib, nəhayət möcüzə baş verib. Terri oyanıb. Lakin oyandıqda qollarının, ayaqlarının iflic olduğunu görüb. Yatağa bağlı yaşamağa davam edib. Həyat yoldaşı yenə ona qulluq edib və bu xidmətdən heç bezməyib. Xəstəxanadakı həkimlər də bu oyanışa heyrət edib və bunun tibb tarixində nadir hadisələrdən biri olduğunu deyiblər. Terrinin həkimi Alesha Badgley "oyanır-oyanmaz ilk kəlməsi "ana!" oldu. Sonra süd istədi. Yavaş-yavaş bütün istəklərini dilə gətirməyə başladı. Terri tibb aləmində "19 il yatmış adam"olaraq tanınmağa başlayıb. Hər kəs ondan danışıb, onu görməyə can atıb. Terri yatağa bağlı qalsa da, möcüzə oyanışından sonra 19 il daha ömür sürüb. 58 yaşının tamamına sayılı günlər qaldığı bir vaxtda həyatla əbədi vidalaşıb. Terri Vayne Vallisin nekroloqunda "Yeməkləri və içkiləri çox sevirdi. Bir zamanlar çox zarafatcıl, oyunları sevən, bacısını cırnatmaqdan xoşlanan, həyat dolu biriydi. Ailəsi onun yumorları üçün çox darıxacaq", yazılıb.

**Məlahət**

# Orhan Pamuk evləndi



**Dünya şöhrətli türkiyəli yazıçı, Ədəbiyyat üzrə Nobel mükafatı laureatı Orhan Pamuk evlənib.**

**"Qafqazinfo" xəbər verir ki, o, 10 ildir münasibətdə olduğu Aslı Akyavaşla ailə qurub.**

**Qeyd edək ki, O.Pamuk 2006-cı ildə Ədəbiyyat üzrə Nobel mükafatı laureatı olub. Yazıçı 1982-ci ildə Aylin Türegünlə ailə qurub. Bu izdivacdan cütlüyün Rüya Pamuk adlı qızları var.**

# Son 30 ildə ilk dəfə...

## Şuşada yamac paraşütündən uçuş gerçəkləşdi



**"Şuşa İli" çərçivəsində Şuşa şəhərində son 30 ildə ilk dəfə yamac paraşütündən (paraplan) uçuş həyata keçirilib.**

**Bu barədə videonu Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov öz tviter hesabında paylaşıb. Uçuş şəhərin ən yüksək nöqtələrindən biri sayılan Qızıl Qaya massivindən (Teleqüllə ərazisi) 1400 metr hündürlükdən yerinə yetirilib.**

**Professional yamac paraşütü pilotu olan Fərid Məmmədov tərəfindən reallaşdırılan uçuş zamanı Şuşa səmasını Qələbə rəmzimiz olan Azərbaycan bayrağı bəzəyib. Xatırladaq ki, dünya paroplan xəritəsində yamac paraşütü üçün Qarabağda yeganə uçuş məkanı Şuşa şəhəri göstərilib.**

**Uçuş gələcəkdə ekoturizm məkanına çevrilməsi nəzərdə tutulan Daşaltı kəndi istiqamətində olub.**

# Marmarisdə lövbər salacaq

## Tarkan 80 milyona aldığı lüks yaxtasına qızı Liyanın adını verəcək



**Müğənni Tarkan yeni aldığı lüks yaxta ilə gündəmə gəlib.**

**Axşam.az türk mediasına istinafən xəbər verir ki, ifaçı su nəqliyyat vasitəsi üçün 80 milyon lirə (təxminən 9 milyon 220 min 861 manat) ödəyib. Tarkan yaxtasına qızı Liyanın adını verəcək. "Numarine xp26" qayığı iki mərtəbədən və beş kabindən ibarətdir. Gəmi Marmarisdə lövbər salacaq.**

# Rihanna milyarderlər siyahısına daxil olub



**Musiqi karyerası ilə bərabər biznes lediliyə də addım atan Rihanna ilk dəfə milyarderlər siyahısına daxil olub.**

**Olay əbər verir ki, "Forbes" jurnalının hesabatına görə müğənni siyahıda 1729-cu yerdədir. Qeyd edək ki, sənətçinin alt geyimləri brendi var.**



# Lənət lövhəsi aşkarlandı

## İsraildə yazının əmələ gəldiyi tarixə yeni baxış ortaya çıxacaq

**İsrailin Ebal dağı ətəklərində axtarış aparan arxeoloqlar poçt qəpiyindən bir qədər böyük lövhəcik aşkarlayıb. Lövhənin konkret hansı tarixə malik olduğu müəyyənləşərsə İsraildə yazının əmələ gəldiyi tarixə yeni baxış ortaya çıxacaq.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, mərkəzi ofisi ABŞ-da yerləşən "Associates for Biblical Research" arxeoloji şöbəsinin bir qrup alimi 2019-cu ildən etibarən İsrailin Nablus şəhərinin şimalındakı Ebal dağının ətəklərində arxeoloji qazıntı aparır. Arxeoloqlar qazıntılar zamanı üzərində qədim ibrani dilində yazı olan lövhəcik aşkarlayıb. Lövhənin üzərində "Lənətlik, lənətlik, lənətlik - Tanrı Yahveh tərəfindən lənətləndi" ifadələri yazılıb. Arxeoloqlar "Yahvey" sözünün ibrani dilində Allah - Tanrı anlamı verdiyini bildirir. Qazıntılara rəhbərlik edən doktor Skott Stripling deyib ki, lövhənin hər iki üzündə 40 hərf "xilas edilib". Bunlar erkən tunc dövrünə aiddir. Ehtimal edilir ki, lövhə miladdan öncəki dövrdən günümüzədək gəlib çıxıb. Əgər mülahizələr doğrulsa, bu tapıntı indiyədək məlum olan tarixi köklü şəkildə dəyişəcək.




S.Stripling "onu görər-görməz nə olduğunu anladım. Bu, lənət lövhəsi idi. Onu tanıdım. Qəlbim az qala yerindən çıxacaqdı", söyləyib. Tapıntının israillilərin tarixin hansı dövründə yazıyla tanışlığının başladığına dair mübahisələrə son qoya biləcəyi də deyilir. Mülahizələr təsdiqini taparsa, israillilərin oxu-yazı tarixi daha bir neçə yüzillik irəli çəkiləcək. Təl-Əviv Universitetinin professoru, arxeoloq İsrael Finkelşteyn isə Ebal dağı ətəklərindəki tapıntı ilə tədqiqatçıların iddiaları arasında böyük boşluq olduğunu deyib: "İncil və əski İsrail tarixi haqqında bildiyimiz hər şeyi zahirən dəyişdirən kəşflərlə bağlı sensasion iddialardan rahatsızam".

**Məlahət**

# Qara gavalı qadınları bəladan qoruyur



**Qara gavalı 40 yaşından sonra, eləcə də menopauza dövründə olan qadınları sümük sıxlığının azalması, sümük əriməsi olan osteoprozdan qoruyur.**

Bakupost.az xəbər verir ki, elmi araşdırmalar nəticəsində qara gavalıda olan bitki birləşmələrinin güclü antioksidant təsirə malik olduğu sübut olunub. Alimlər bildirir ki, qara gavalı oynaq və əzələlərdəki iltihabı da aradan qaldırır. ABŞ-ın Pensilvaniya universitetinin üzvləri təcrübədə 50 yaş yuxarı qadınlar üzərində qara gavalının sümüklərə necə təsir etdiyini araşdırıb. Qara gavalı bədəndə olan oksidativ stresi azaldır, sümük toxumasının osteoklastlarındakı iltihabı götürür. Hər gün 50 qram qara gavalı yemək qanda iltihab göstəricisini salıb, sümük toxumasının yumşalma dərəcəsi azalıb. Beləliklə, 40 yaşdan sonra gündə 12 ədəd qara gavalı yemək qadınlarda osteoporozun inkişafının qarşısını alar, gələcəkdə sümük qırılmasını önləyər.

# "Qiyamət qatarı" şok yaratdı

## Çin nüvə silahlarını dünyaya daşıyacaq



**Çindən ürküdücü xəbərlər gəlir. Xarici mediada yer alan məlumata görə Çin hökuməti sürət qatarlarından nüvə silahı daşıyıcısı kimi istifadə etməyi planlaşdırır.**

İndiyədək nüvə silahlarının səmadan, dənizdən işə salına biləcəyi bildirilirdisə, bundan sonra sürət qatarları da bu dəhşəti dünyaya daşıyacaq. Çində aparılan tədqiqat sürət qatarlarının nüvə silahı daşımaq üçün uyğun olduğu gerçəyini ortaya qoyub. Vaxtilə SSRİ də bunu təcrübədən keçirirmiş. Lakin SSRİ ilə ABŞ arasında nüvə silahlarına moratorium qoyulmasıyla bağlı imzalanan müqavilə sonrası bundan əl çəkildi. Çin isə göründüyü qədər bu təcrübəni yenidən tətbiq etməyə hazırlaşır. Çinin Siçuan əyalətinin paytaxtı Çenqdu şəhərindəki universitetdə inşaat mühəndisliyi tədris edən dosent Yin Zihonq və rəhbərlik etdiyi işçi qrup apardıqları tədqiqatlarla sürət qatarları vasitəsilə nüvə silahından istifadə edilə biləcəyi nəticəsini əldə edib. Tədqiqat zamanı saatda 350 km. sürətlə hərəkət edən, 60 ton ağırlığında, 16 vaqondan ibarət qatar maketindən istifadə edilib. Qatarın "Qiyamət qatarı" ola biləcəyi, nüvə silahlarını daha sürətlə daşıya və atəş aça biləcəyi nəticəsinə gəlinib. Bunun bir səbəbi də dəmiryollarının daha keyfiyyətli, ağırlığa davamlı inşa edilməsidir. Çin ordusunun 2016-cı ildə bir qatar vaqonundan nüvə raketi fırlatdığı da məlumdur. Bu qatarlar zahirən mülki nəqliyyat kimi görünəcək, daxildə isə silah daşıyıcısı olacaq.

**Məlahət**

# Məşhur evlilik proqramı yenidən başlayır



**Bir vaxtların məşhur evlilik proqramı "Kismetse olur"un yenidən başlayacağı ilə bağlı iddialar səsləndirilib.**

Olay xəbər verir ki, deyilənə görə, veriliş Acun Ilıcılanın sahibi olduğu "Exxen" onlayn platformasında yayımlanacaq.

Keçmiş iştirakçıların da dəvət olunacağı layihədə yeni simalar da olacaq.

Qeyd edək ki, "Kismetse olur" 2017-ci ildə ekrana gəlib. Bu layihədə qızlar evi və oğlan evi kimi bölmələr olub. Evlilik proqramlarının fərqli formatı olan veriliş yayımlandığı tarixdə reytinqlərdə birinci olub. İndi də videoları sosial şəbəkələrdə paylaşılır.

# Xəstəliyinə görə mülklərini satdı



**Bir müddət əvvəl afaziya (formalaşmış nitqin sistem pozğunluğu ) diaqnozu qoyulan dünyaca məşhur amerikan aktyor Volter Brüs Uillis mülklərini satmağa başlayıb.**

Olay xəbər verir ki, 67 yaşlı ulduz Nyu Yorkdakı qış malikanəsindən tutmuş, Turks və Kaykos adalarındakı yay malikanəsinə qədər 65 milyon dollar dəyərində əmlakını satıb.

Uillis ailəsi bu satışların həyata keçirməsinin səbəblərinin daha çox ailə ilə vaxt keçirmək və gələcəklərini maddi cəhətdən təmin etmək olduğunu bildirib.